QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 180 (5900) **2 oktyabr** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# <u>İlham Əliyev:</u> “Bu gün Azərbaycan dünya miqyasında sabitlik məkanıdır”

*Prezident İlham Əliyev Bakının Atatürk prospektində yerləşən parkda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub*



Səh 2

8

**Əli Əhmədov: “Mitinq üçün ən yaxşı yer stadiondur”**



5

**Heydər Əliyev müasir azərbaycançılıq ideologiyasının banisidir**



4

**YAP Bilgəhdəki sosial xidmət müəssisəsinin sakinləri ilə görüş keçirib**



# İlham Əliyev: "Bu gün Azərbaycan dünya miqyasında sabitlik məkanıdır"

*Prezident İlham Əliyev Bakının Atatürk prospektində yerləşən parkda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 1-də Bakının Nərimanov rayonundakı Atatürk prospektində yerləşən parkda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.***







AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya parkda görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, parkda yenidənqurma işlərinə cari ilin may ayından başlanılıb. Layihə çərçivəsində parkda əsaslı yenidənqurma işləri aparılıb, landşaft dizaynı yenilənib. Bütün yaş qruplarına aid vətəndaşlar nəzərə alınaraq onlar üçün xüsusi guşələr yaradılıb. Parkda uşaq əyləncə və trenajor qurğuları quraşdırılıb. Burada, həmçinin konsert meydançası da var.



Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə Azərbaycanda sosial-iqtisadi sahədə həyata keçirilən layihələr ölkəmizin ümumi inkişafına sanballı töhfələr verib. Təsadüfi deyil ki, bu gün Azərbaycan sosial-iqtisadi inkişafına görə dünyada lider ölkələrdən biridir. Əldə olunan nailiyyətlər Azərbaycanın bütün regionlarının, o cümlədən paytaxt Bakının da timsalında aydın görünür. Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə əsasən paytaxtımızda icra olunan layihələr nəticəsində Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Paytaxt Bakı gündən-günə abadlaşır, müasirləşir və yenilənir. Bu baxımdan yeni park və xiyabanların salınması, mövcudlarının yenidən qurulması, sosial obyektlərin inşası, ictimai yerlərin istifadəyə verilməsi xüsusi rol oynayır. Nərimanov rayonundakı Atatürk prospektində yerləşən parkın əsaslı şəkildə yenidən qurulması da mühüm əhəmiyyət daşıyır. Bu layihənin icrası, eyni zamanda, son dövrlərdə paytaxtımızda aparılan abadlıq-quruculuq işlərinin həcmini də nümayiş etdirir və bu istiqamətdə görülən tədbirlərin ardıcıl xarakter aldığını göstərir. Ümumilikdə, indiyədək şəhərimizin daha da abadlaşdırılması və müasirləşdirilməsi istiqamətində görülən işlər vətəndaşların istirahətinin, asudə vaxtlarının səmərəli təşkilinə hərtərəfli imkan yaradır. Bakının müasir sosial infrastrukturundan paytaxt sakinləri ilə yanaşı, şəhərimizin çoxsaylı qonaqları da istifadə edirlər. Şübhəsiz ki, bütün zəruri infrastrukturla təchiz olunan belə müasir parkların yaradılması turistlərin istirahətinin dolğun və maraqlı təmin olunması işində, onların ölkələrinə Bakıdan zəngin təəssüratlarla qayıtmalarında da böyük rol oynayır. Ümumi sahəsi 6.5 hektar olan bu istirahət məkanının yenidən qurulması bir daha nümayiş etdirir ki, Azərbaycan dövləti tərəfindən insanların rahatlığı, onların sağlamlığı, bir sözlə, vətəndaşların sosial məsələlərinin həllinə daim xüsusi həssaslıqla yanaşılır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva parkda sakinlərlə görüşdülər.

Sakinlər: Xoş gördük Sizi cənab Prezident.

Prezident İlham Əliyev: Salam, xoş gördük.

Sakin: Bu parkda yaradılan gözəlliyə görə çox sağ olun. Allah Sizə ömür versin. İllər boyu yaradırsınız, qurursunuz. Dost görür sevinir, düşmən görür gözü kor olur. Dünya qan çanağına dönüb. Amma Allaha şükürlər olsun ki, dövlətimiz, ölkəmiz inkişaf edir. Bu inkişaf Sizin əməyinizin nəticəsidir. Fəxr edirik ki, müdrik Prezidentimiz, birinci xanımımız var. Allah Sizə cansağlığı versin. Mənim 7 nəvəm var, gəlib burada istirahət edirəm. Bütün bunlara görə çox sağ olun, Allah Sizi qorusun.

Prezident İlham Əliyev: Sağ olun. Mən ilin əvvəlində burada idim, yeni İnnovasiya Mərkəzinin açılışında. Oradan çıxanda gördüm ki, bu parkın vəziyyəti çox acınacaqlıdır, dözülməzdir. Göstəriş verdim ki, burada abadlıq işləri aparılsın və 6,5 hektarı əhatə edən bu park qısa müddət ərzində yenidən quruldu, ən gözəl səviyyəyə çatdırıldı. İndi burada yaşlı nəslin, uşaqların, yeniyetmələrin və gənclərin istirahəti üçün bütün imkanlar var. Ümumiyyətlə, Bakı son illər ərzində bağlar və parklar şəhərinə çevrilibdir. Deyə bilərəm ki, parkların sayına görə biz dünya miqyasında ən qabaqcıl yerlərdəyik.

Sakin: İndi Bakı dünyanın göz muncuğudur.

Prezident İlham ƏLİYEV: İndi Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Baxın, son illərdə şəhərimizdə nə qədər park salınıb. İlk növbədə, bizim ən böyük parkımız bulvar. Əvvəllər bulvarın uzunluğu 3 kilometr idi, indi 15 kilometrdir. Hər tərəf yaşıllıq, hər tərəf gözəl, hər tərəf abad. Heydər Əliyev Mərkəzinin və Konqres Mərkəzinin ətrafında 20 hektarı əhatə edən böyük bir park var. İndi uşaqlar, yaşlı nəsil orada istirahət edir. Yusif Səfərov küçəsindəki park. Orada da yöndəmsiz binalar var idi, infrastruktur dağılmışdı. Orada da park salındı. Yəni, bu abadlıq-quruculuq işləri vətəndaşlar üçündür. Çünki vətəndaşlar ictimai yerlərdən istifadə etməlidirlər. Bu parkda da çox gözəl şərait yaradılıb.

Bakı şəhərinin problemlərinin həlli istiqamətində böyük işlər görülür. Bilirsiniz ki, bu yaxınlarda metronun "Koroğlu" stansiyasının yanında yeni Nəqliyyat Mübadilə Mərkəzinin açılışını qeyd etdik. Yeni avtobuslar gətirilir. Bu il 300 avtobus gətirilib, əvvəlki dövrlərdə də gətirilib. Gələn il də ən azı 300 müasir avtobus gətiriləcək. Bakı o şəhərlərdəndir ki, metro tikintisi gedir. Deyə bilərəm ki, MDB məkanında yalnız Rusiyada və Azərbaycanda metro tikintisi davam etdirilir. Bu il 30 yeni vaqon gətirilib. Bu vaqonlarda həm kondisioner, həm də gözəl şərait var. Bütün bunlar vətəndaşların rahatlığı üçün edilir. İndi mənim təşəbbüsümlə nümunəvi həyətlər qurulur. Bütün həyətlər abadlaşdırılacaq və həyətlərdə bütün şərait yaradılacaq. Lift təsərrüfatı yenilənir. Bu məqsədlə 40 milyon manat vəsait ayrılıb. İcra başçısı, məlumat ver, indiyədək neçə lift dəyişdirilib?

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov: Artıq 50 lift quraşdırılıb. Sizin tapşırığınıza uyğun olaraq, ilin axırınadək 500-ə qədər olacaq.

Prezident İlham Əliyev: Yəni, bütün bunlar Bakının həm gözəlliyi, abadlığı, eyni zamanda, vətəndaşların rahatlığı üçündür. Biz bu işləri davam etdirəcəyik. Bakının hər bir guşəsi abad, gözəl olmalıdır. Vətəndaşlar üçün çox gözəl imkanlar yaradılmalıdır.

Sakin: Allah Sizə cansağlığı versin. İnsanlar Sizi sevir və dəstəkləyir. Həmişə deyirik ki, Prezidentimiz camaatın arasındadır. Onun gecəsi-gündüzü ancaq camaatı düşünməkdir.

Prezident İlham Əliyev: Belə də olmalıdır. Mənə də güc verən vətəndaşların dəstəyidir. Mən bu dəstəyə arxalanıram, güvənirəm. Bu, mənə güc verir. Bu gün Azərbaycan dünya miqyasında sabitlik məkanıdır, inkişaf diyarıdır. Bundan sonra da biz ancaq yüksələn xətlə inkişaf edəcəyik, buna heç kimin şübhəsi olmasın.

Sakin: Cənab Prezident, Sizdə də, xanımınızda da çox böyük səmimiyyət var. Allah Sizi qorusun.

Prezident İlham Əliyev: Çox sağ olun.

Digər sakin: Cənab Prezident, mən də öz növbəmdə Sizə, Mehriban xanıma minnətdarlığımı bildirirəm. Sizlərlə görüşmək çox xoş oldu. Açıq havada belə gözəl müasir park yaratdığınız üçün Sizə minnətdarlığımı ifadə etmək istəyirəm. Həqiqətən parkda gözəl şərait var, müasir idman qurğuları quraşdırılıb, şahmat meydançası, velosiped, qaçış zolaqları yaradılıb. Biz də bu ərazidə yaşayırıq. Əvvəllər asudə vaxtlarımızda dostlarımızla istirahət üçün kənara gedirdik. İndi burada müasir, gözəl şərait yaradılıb. Biz tez-tez buraya gələcəyik. Buna görə dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun cənab Prezident.

Prezident İlham Əliyev: Şəhərin hər yerində gözəl parklar, ictimai zonalar olmalıdır və bunu yaradırıq.

Sakinlər: Sağ olun cənab Prezident, bütün azərbaycanlılar Sizin arxanızdadır.

X X X

Sonda xatirə şəkli çəkdirildi.

# Bakı dünyanın ən gözəl şəhərlərindən biridir

*Paytaxtın 28 May, Dilarə Əliyeva və Fikrət Əmirov küçələrinin kəsişməsində yeni park istifadəyə verilib*







***Oktyabrın 1-də Bakının Nəsimi rayonunda 28 May, Dilarə Əliyeva və Fikrət Əmirov küçələrinin kəsişməsində yeni park istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva parkda yaradılan şəraitlə tanış olublar.***

Dövlətimizin başçısının tapşırığı ilə salınan yeni parkda sakinlərin və turistlərin istirahəti üçün hərtərəfli şərait yaradılıb.

Müasir üslubda, orijinal dizaynda qurulan bu cür istirahət mərkəzlərinin istifadəyə verilməsi ilə paytaxtın gəzməli yerlərinə daha bir neçə ünvan əlavə olundu. Belə layihələrin icrası bir daha sübut edir ki, paytaxtımızın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır və yüksək keyfiyyətlə yerinə yetirilir. Bütün bunlar isə sosial layihə olmaqla yanaşı, həm də ümumilikdə, ölkəmizin iqtisadi qüdrətini nümayiş etdirir.

# Prezident İlham Əliyev ölkəmizdə keçirilən növbəti siyahıyaalınmada iştirak edərək siyahıyaalma və sorğu vərəqələrinin suallarını cavablandırıb

***Oktyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə həyata keçirilən növbəti siyahıyaalınmada iştirak edərək siyahıyaalma və sorğu vərəqələrinin suallarını cavablandırıb.***

AZƏRTAC xəbər verir ki, ölkəmizdə keçirilən növbəti siyahıyaalınma barədə Prezident İlham Əliyevə məlumat verən Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov dedi:

- Cənab Prezident, Fərmanınıza əsasən bu gün ölkədə əhalinin siyahıyaalınmasına start verilir. İlk növbədə, cənab Prezident, tərtib olunmuş siyahıyaalma və sorğu vərəqələrinin cavablandırılmasını Sizdən xahiş edərdik. Bu siyahıyaalınmanın keçirilməsi zərurəti ondan irəli gəlir ki, son illərdə insanların yaşayış, mənzil şəraitində çox ciddi dəyişikliklər baş vermişdir. Miqrasiya proseslərində də müəyyən dəyişikliklər olmuşdur. Bütün bunlar nəzərə alınaraq keçirilən bu siyahıyaalmanın nəticəsində insanların rifah halında, onların gəlir mənbələrində, mənzil-məişət şəraitində baş verən dəyişikliklərlə yanaşı, əhalinin ailə tərkibi, ev təsərrüfatlarının tərkibi, hər bir şəxs barədə toplanılan məlumatlar ölkədə həm daxili, həm xarici miqrasiya proseslərinə, eyni zamanda, insanların məşğulluq statusuna, onların gəlir mənbələrinə, təhsil səviyyəsinə dair bir çox sosial-iqtisadi göstəricilərin əldə edilməsinə imkan yaradacaq.

Tahir Budaqov ilk dəfə olaraq siyahıyaalınmaya sosial statusla bağlı məsələlərin daxil edildiyini bildirdi. O, siyahıyaalınmada Strateji Yol xəritələrindən irəli gələn məsələlərin monitorinqi, eləcə də dayanıqlı inkişaf üzrə BMT-nin müvafiq qərarları ilə bağlı sualların da nəzərə alındığını diqqətə çatdırdı.



Prezident İlham Əliyev:

-Çox yaxşı. Bu, hər bir ölkə üçün çox önəmli tədbirdir. Azərbaycanda da siyahıyaalınma tədbirləri müntəzəm olaraq keçirilir. Son dəfə 10 il bundan əvvəl keçirilmişdir. Əlbəttə, bu 10 il ərzində ölkəmizdə çoxlu dəyişikliklər baş vermişdir. İlk növbədə, demoqrafik vəziyyət daha da yaxşılaşdı. Bu il biz 10 milyonuncu vətəndaşın dünyaya gəlməsini təntənə ilə qeyd etmişik. İşsizliklə bağlı görülmüş tədbirlər öz səmərəsini verir, vətəndaşların sosial rifahı yaxşılaşır. Təkcə bu il minimum əməkhaqqı təxminən iki dəfə artırıldı. Həmçinin pensiyalar, tələbələrin təqaüdləri, müavinətlər artırıldı. Yəni, sosial-iqtisadi inkişaf demoqrafik inkişafla uzlaşır və bu da təbiidir.

Əlbəttə, müstəqillik dövründə Azərbaycanın əhalisi təxminən 3 milyon artmışdır. Bu da bizim mövqelərimizi möhkəmləndirir, ölkəmizi gücləndirir. Eyni zamanda, qarşımıza yeni çağırışlar çıxır. Siyahıyaalınma bizə daha dəqiq və müfəssəl məlumat verəcək. Baxmayaraq ki, biz ölkəmizdəki prosesləri yaxından izləyirik və bu proseslər müsbət istiqamətdə gedir. Siyahıyaalma 10 gün ərzində keçiriləcək və bu gün artıq bu proses başlayır. Əminəm ki, 10 gün ərzində Azərbaycan əhalisinin tam şəkildə siyahıyaalınma prosesi başa çatacaq və bizə iqtisadi inkişafla, infrastrukturla, miqrasiya və əmək resurslarının artımı ilə bağlı yeni məlumat verəcək ki, gələcək inkişafımızı necə planlaşdıraq. Bizdə əmək resursları artır. Əlbəttə ki, tədbirlər gərək bu artıma uyğun olsun.

Dövlət Statistika Komitəsinin əməkdaşı Zəbihə Əsgər:

-Cənab Prezident, BMT-nin tövsiyələrinə əsasən siyahıyaalmanın iki əsas sənədi var ki, bunlardan biri siyahıyaalma vərəqi, digəri isə sorğu vərəqidir. Siyahıyaalma vərəqinin doldurulmasının məqsədi ev təsərrüfatları haqqında məlumat əldə etməkdir.

Sonra Prezident İlham Əliyev siyahıyaalma və sorğu vərəqələrində nəzərdə tutulan sualları cavablandırdı.

# YAP Bilgəhdəki sosial xidmət müəssisəsinin sakinləri ilə görüş keçirib









***Dünən Yeni Azərbaycan Partiyasının rəhbərliyi 1 Oktyabr - Beynəlxalq Ahıllar Günü münasibətilə Bilgəhdəki Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində olub. SİA-nın verdiyi məlumata görə, sosial xidmət müəssisəsinin sakinləri ilə görüşdə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan uğurlu sosial siyasətin Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam və inkişaf etdirildiyini, bu siyasətin mərkəzində insan amilinin dayandığını vurğulayıb.***



Əli Əhmədov bildirib ki, bunun nəticəsi olaraq, ölkədə dinamik iqtisadi inkişaf prosesləri vətəndaşların rifah halının yaxşılaşdırılması istiqamətində mühüm irəliləyişlərin əldə olunması ilə nəticələnir. 2019-cu ilin ötən dövründə dövlət başçısının imzaladığı Fərman və sərəncamlar da əhalinin sosial müdafiəsinin gücləndirilməsində inqilabi addımlardır. Eyni zamanda, dövlət himayəsində yaşayan tənha yaşlı və ahıl insanların normal yaşayış şəraiti, onların etibarlı sosial müdafiəsi təmin olunur. Əli Əhmədov yaşlı nəslə, ahıllara həmişə diqqət və qayğı göstərilməsi işlərində YAP-ın da fəal iştirak etdiyini, partiyanın nümayəndələrinin tez-tez bu müəssisədə görüşlər keçirdiyini və burada yaşayanlara öz dəstəyini göstərdiyini vurğulayıb.

YAP-ın sədr müavini qeyd edib ki, Azərbaycan hökuməti bütün insanlara, o cümlədən ahıllara həmişə diqqət və qayğı göstərir: “Bu xidmət müəssisəsinin sakinləri üçün lazım olan bütün imkanlar və şərait yaradılıb. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, burada yaşayan insanların əhval ruhiyyəsinin yaxşı olması bizi sevindirir. Bu, bizim hökumətimizin həyata keçirdiyi siyasətin humanizmindən, insanpərvərliyindən, insanlara qayğısından xəbər verir. Prezident İlham Əliyevin bu gün həyata keçirdiyi siyasətin əsas qayəsi də ondan ibarətdir ki, dövlətimizin iqtisadi imkanlarından hər bir vətəndaşın həyatının yaxşı təşkil olunması üçün istifadə edilsin, o cümlədən də qayğıya ehtiyacı olan bütün insanlar diqqət mərkəzindən kənarda qalmasın”. O, həmçinin respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətindəki təşəbbüslərini də xüsusi vurğulayıb.

Baş nazirin müavini oktyabrın 1-dən minimum pensiyanın 200 manat səviyyəsinə qaldırıldığını deyərək bu istiqamətdə tədbirlərin bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin sosial inkişaf kursuna uyğun olaraq ahıl vətəndaşların pensiya təminatının gücləndirilməsi istiqamətində atılan mühüm addımları diqqətə çatdırıb. O dövlət başçısının islahatlar proqramının uğurlu nəticələrindən biri kimi, bu ilin ötən dövründə ölkəmizdə pensiyanın minimum məbləğinin 72,4 faiz artırılaraq 116 manatdan 200 manata çatdırıldığını, bununla da Azərbaycanda minimum pensiya məbləğinin pensiyaçılar üçün yaşayış minimumunu 34, 2 fazi üstələdiyini qeyd edib.

Nazir sosial xidmət müəssisəsində yaşayan ahıl insanların dövlət qayğısı ilə əhatə olunduqlarını, Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində müasir tələblərə uyğun yaşayış şəraiti yaradıldığını, müəssisə üçün 5 mərtəbəli 170 yerlik ikinci korpusunun inşa olunaraq istifadəyə verildiyini bildirib. S.Babayev Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın əhalinin sosial cəhətdən həssas olan kateqoriyalarına, habelə tənha ahıllara xüsusi qayğısından bəhs edib. Heydər Əliyev Fondunun sosial xidmət müəssisələri, o cümlədən Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsi ilə bağlı nəcib layihələrini, xeyirxah tədbirlərini, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın bu müəssisənin sakinlərinə qayğıkeş münasibətini, buraya tez-tez gələrək müəssisədəki yaşlı, ahıl insanlarla görüşdüyünü qeyd edib.

Nazir həmçinin sosial xidmət sistemində yeni istiqamətlərdən biri kimi, Bakıda və bölgələrdə ahıllar üçün günərzi mərkəzlərin yaradıldığını deyib. Onun sözlərinə görə, bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial xidmətçiləri tərəfindən ölkə üzrə 10 min ahıl şəxsə evində xidmət göstərilir.

Tədbirdə çıxış edən AMEA-nın prezidenti, YAP-ın Sədr müavini Akif Əlizadə də dövlətimizin, şəxsən Prezident İlham Əliyevin ahıl, qayğıya ehtiyacı olan insanlara göstərdiyi diqqət və qayğıdan danışaraq bu işlərin bundan sonra da davam etdiriləcəyinə əminliyini bildirib.

237 nəfərin yaşadığı müəssisənin sakinləri də tədbirdə ürək sözlərini bildirərək, onlara göstərilən yüksək qayğıya, sosial müdafiə tədbirlərinin, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi üçün atılan mühüm addımlara, eyni zamanda, dövlətin himayəsində yaşayan yaşlı, ahıl insanlar üçün yaradılan müasir, rahat şəraitə görə Azərbaycan Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Tədbirdə YAP İcra katibinin müavinləri - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov görüşdə iştirak ediblər. Tədbir bədii hissə ilə davam edib.

***Ceyhun Rasimoğlu***

# Heydər Əliyev müasir azərbaycançılıq ideologiyasının banisidir

***Dəyərli oxucuların diqqətinə çatdırmaq istəyirəm ki, 1993-cü ildən başlayaraq indiyə qədər ölkədə Azərbaycan Respublikasının dövlət ideologiyası - azərbaycançılıq məfkurəsi ilə bağlı çoxsaylı kitab və məqalələr yazılıb, dəyirmi masalar və konfranslar keçirilib, bu sahədəki mövcud vəziyyət və gələcək işlər haqqında mətbuat səhifələrində geniş müzakirələr aparılıb. Görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin azərbaycançılıq ideologiyası, onun ölkəmizdə tətbiqi ilə bağlı çoxsaylı çıxışları və tövsiyələri olub.***

Həmin çıxış və tövsiyələr dövlət qurumları və müvafiq siyasi-ideoloji strukturlar tərəfindən mütəmadi olaraq öyrənilir, irəli sürülən müddəa və prinsiplər nəzərə alınır, ictimai həyatımızın bütün



*Əli Həsənov*
***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor***

sahələrində tətbiq edilir. Lakin nədənsə bütün digər fəaliyyət sahələrində olduğu kimi, ideoloji sahədə də özlərini hələ də real olaraq tapa bilməyən, öz ətraflarında ciddi bir siyasi-ideoloji boşluq hiss edən bəzi “siyasətçilər” yenə Azərbaycan hakimiyyətini milli ideologiya yaratmamaqda günahlandırır və bu sahə ilə bağlı yalan informasiya yayaraq cəmiyyəti çaşdırmağa çalışırlar. Odur ki, yenidən milli ideologiya və onun Azərbaycanda tətbiqi mövzusuna qayıtmaq istəyirəm.

Bu fikirlər Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənovun “Heydər Əliyev müasir azərbaycançılıq ideologiyasının banisidir” sərlövhəli məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.

Məlum olduğu kimi, müasir dünyada irili-xırdalı, təxminən 5000-dən artıq xalq mövcud olsa da, BMT iqamətgahında bayrağı dalğalanan müstəqil dövlətlərin sayı bu gün 200-dən bir qədər çoxdur. Azərbaycan dövlətinin bu sırada öz yerini tutması xalqımızın böyük tarixi nailiyyəti kimi qiymətləndirilir.

Hər bir xalqın müstəqil dövlət quruculuğu yolu bir sıra mühüm daxili və xarici amillərlə şərtlənir. Azərbaycan xalqı əlverişli tarixi şəraitdən və özünün siyasi, iqtisadi, mədəni və intellektual potensialından istifadə edərək XX əsrin sonunda çoxdankı istiqlal arzusunu yenidən gerçəkləşdirdi. Lakin müstəqillik dövrünün qısa tarixi ümummilli lider Heydər Əliyevin belə bir fikrini təsdiq edir ki, “müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi və əbədi olması bundan da çətindir”. Bu illər ərzində Azərbaycanın keçdiyi yolun təhlili göstərir ki, dövlət qurmaq kimi çətin, mürəkkəb və şərəfli missiyaya o dövrdə möhkəm iradəli, geniş və qlobal dünyagörüşlü, xalqın böyük dəstəyinə malik və onun milli liderinə çevrilmiş şəxs başçılıq edə bilərdi və belə də oldu. XX əsrin 90-cı illərinin sonunda Azərbaycanda Ümummilli Lider mövqeyinə yüksələ bilən və bu işlərin öhdəsindən gəlmək iqtidarında olan yeganə şəxsiyyət məhz Heydər Əliyev idi.

Heydər Əliyevin əməli və nəzəri fəaliyyətinin mühüm bir hissəsini onun milli dövlətçilik təlimi, milli-mənəvi və ideya-siyasi dünyagörüşü təşkil edir. Onun bu sahə üzrə toplanmış zəngin irsi təkcə bugünkü ictimai-siyasi dairələr üçün deyil, həm də gələcək nəsillər, Azərbaycana rəhbərlik etmək istəyən bütün liderlər üçün örnək olmağa layiqdir. Müasir Azərbaycanın möhkəm özülünü qoymuş bu tarixi şəxsiyyətin ideya dünyası onun davamçılarının yoluna həmişə işıq salacaq.



> “Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!”
>
> ***HEYDƏR ƏLİYEV***

Heydər Əliyevin ideya və fikirləri, həyata keçirdiyi siyasət Azərbaycan şəraitində sosialist ictimai-iqtisadi sistemindən yeni cəmiyyətə keçidin elmi-nəzəri və konseptual əsaslarını yaratmışdır. İmperiya və sosialist sistemindən azad olaraq müstəqillik yolu tutmuş, lakin region və dünya güclərinin üst-üstə düşməyən, kəsişən maraqları ilə üz-üzə qalmış, qloballaşan dünyada öz yerini axtaran, milli mənafelərini qorumağa çalışan gənc Azərbaycan üçün Heydər Əliyevin dövlətçilik təlimi əsl fəaliyyət strategiyası və proqramı idi. Uzun illər öz dövlətçiliyindən və milli-mənəvi köklərindən ayrı salınmış, milli və dövlətçilik maraqları tapdanmış Azərbaycan xalqının özünəqayıdış və özünütəsdiqində Heydər Əliyevin əməli fəaliyyəti və ideya-siyasi baxışlarının çox böyük rolu olub.

Heydər Əliyev 1993-cü ildə yenidən Azərbaycanın rəhbərliyinə qayıdarkən bitkin dövlət konsepsiyasına malik idi. Bu konsepsiyanın bəzi tezisləri onun 1992-ci ildə Azərbaycan ziyalılarına ünvanlanmış müraciətində və elə həmin il qəbul edilmiş Yeni Azərbaycan Partiyasının proqramında öz əksini tapıb. Bu müraciət - proqramda dövrün real ictimai-siyasi vəziyyəti, müstəqil dövlət quruculuğunun şərtləri, regionumuzda və beynəlxalq aləmdə cərəyan edən hadisələrin və yaşanan proseslərin xarakteri, Azərbaycanın daxili durumu, hökm sürən iqtisadi, siyasi böhran, ondan çıxış yolları və digər taleyüklü məsələlər tezislər şəklində özünün əsl siyasi qiymətini alıb.

Ulu öndər Heydər Əliyev hər bir dövlətin varlığının əsasını təşkil edən iqtisadi inkişafı ölkə həyatının ən vacib vəzifəsi hesab edirdi. O öyrədirdi ki, dövlət qurarkən cəmiyyətin yaşam tərzini, ictimai həyat normalarını, idarəçiliyi, qanunçuluğu, sabitliyi, vətəndaş birliyini, milli həmrəyliyi, beynəlxalq təhlükəsizliyi və s. vəzifələri o zaman dolğun və davamlı təmin etmək olar ki, dövlətin iqtisadiyyatı güclü olsun və qarşıya qoyulmuş məqsədlərə cavab versin.

Heydər Əliyev dövlət quruculuğunun bütün sahələrində insan amilinə, milli və dövlətçilik təfəkkürü güclü olan kadrlara ciddi önəm verirdi, hər bir Azərbaycan vətəndaşını milli əxlaqa və güclü iradəyə malik, qlobal və azad düşüncəli, təşəbbüskar, fəal, ölkədaxili və beynəlxalq proseslərdən baş çıxara bilən, təhsilli, ədalətli, Vətəni və xalqı üçün gərəkli insan kimi görmək istəyirdi.

Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan Respublikasına on illik rəhbərliyi dövründə nəinki müstəqil Azərbaycan dövlətini qurdu və gələcək inkişafının hərtərəfli sağlam təməlini qoydu, eyni zamanda, ölkə vətəndaşlarını səfərbər edən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında birləşdirən milli təlim - azərbaycançılıq ideologiyasını yaratdı. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıdanda Azərbaycanda keçmiş kommunist ideologiyasından imtina edilmişdi. Lakin xalqı müstəqil dövlətçilik ətrafında birləşdirə bilən, azərbaycanlıların kimliyini, yaratdığı dövlətin xarakterini izah edən, milli-mənəvi dəyərlərini qoruyub saxlayan və inkişaf etdirən, ölkə vətəndaşlarını öz ətrafında səfərbər edərək gələcəyə aparan nə vahid ideya-siyasi təlim, nə də funksional idarəçilik sistemi yaradılmışdı. Keçmişin bütün zəngin irsindən, o cümlədən elmi, intellektual, mənəvi, ictimai dəyərlərindən total şəkildə imtina meyli Azərbaycanda, sözün həqiqi mənasında, ciddi ideoloji boşluq yaratmışdı. Cəmiyyətin ideyasızlaşdırılması cəhdi bir tərəfdən keçmiş kommunist rejiminə nifrətdən qaynaqlanırdısa, digər tərəfdən 1991-1993-cü illərdə Azərbaycanı idarə edən rəsmilərin aydın məqsəd və məramının yoxluğundan, rəhbərlik etdikləri dövlətin siyasi, iqtisadi, mədəni, mənəvi inkişafı haqqında dolğun təsəvvürə malik olmamalarından irəli gəlirdi.

Heydər Əliyevin dövründə Azərbaycan vətəndaşlarını vahid amal, ideya və məqsəd ətrafında birləşdirəcək milli ideologiyanın yaradılması dövlət siyasətinin prioritetinə çevrildi. Bir faktı xüsusi vurğulamalıyıq ki, başqa sahələrdə olduğu kimi, milli-ideoloji baxışlar sisteminin formalaşmasında da Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin varislik prinsipini qorudu və vaxtilə onun qurucularının birləşdirici ideya kimi irəli sürdüyü azərbaycançılıq ideologiyasına müraciət etdi. Həm də, nəinki sadəcə müraciət etdi, onu real və dolğun məzmunla zənginləşdirərək dövlət siyasəti səviyyəsinə qaldırdı.

Ümummilli Lider qeyd edirdi ki, milli ideologiya tarixi keçmişimizlə, millətimizin adət-ənənələri, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır. Məlum olduğu kimi, azərbaycançılıq ideyasının tarixi son iki əsri əhatə edir. XIX əsrin milli maarifçilik hərəkatı nümayəndələrinə qədər azərbaycançılıq ifadəsi əsasən vətənçilik, vətənsevərlik mənasında işlədilirdi və onun milli səfərbəredici və gündəlik praktiki təsiri çox aşağı idi. Lakin XIX əsrin maarifçilik hərəkatı nümayəndələri, xüsusən M.F.Axundzadə, A.A.Bakıxanov, H.B.Zərdabi, N.B.Vəzirov, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, N.Nərimanov və başqaları azərbaycançılığı xalqımıza qarşı həyata keçirilən işğalçılığa, milli məhrumiyyətlərə müqavimət reaksiyası, tarixi yaddaşın qorunması, ana dilinin, milli adət-ənənələrin, mənəviyyatın yaşadılması, inkişafı, milli şüurun oyanışı və s. vasitəsi kimi təbliğ edirdilər.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları ilk dəfə azərbaycançılıq ideyasını yeni - daha sistemli məzmunda dövlət siyasəti səviyyəsinə qaldırmağa cəhd göstərərək, Cümhuriyyətin fəaliyyətini bu ideya istiqamətində qurmağa çalışmışlar. Lakin Xalq Cümhuriyyətinin tezliklə süqut etməsi azərbaycançılıq ideyasını da gündəmdən çıxararaq kommunist ideologiyasının kölgəsinə saldı.

*Ardı Səh. 6*

# Heydər Əliyev müasir azərbaycançılıq ideologiyasının banisidir

Əvvəli Səh. 5




Sovet dövründə azərbaycançılıq ideyası əsasən xalqın yaddaşında, o cümlədən milli adət-ənənələrdə, müəyyən qədər də bədii əsərlərdə yaşamış və təbii ki, dövlət ideologiyasına çevrilə bilməmişdir. Lakin bir faktı xüsusi vurğulamalıyıq ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə - 1970-80-ci illərdə azərbaycançılığın inkişafına əlverişli ictimai-siyasi, elmi və mədəni-mənəvi şərait yaradılmışdır. Bu şəraitdən o dövrdə tarixçilər, ədəbiyyatçılar, dilçilər, filosoflar və başqa intellektual fəaliyyət nümayəndələri müəyyən qədər bəhrələnərək bir çox əsərlər yaratmışlar. Həmin əsərlərdə azərbaycançılığın mühüm sahələri olan ümumazərbaycançılıq hisslərinin, Azərbaycan dilinin, milli şüurun, mədəniyyətin, mənəvi dəyərlərin, zamanın sınaqlarından çıxmış ənənələrin inkişafı və dünyada təbliği, gənc nəslin milli ruhda tərbiyə edilməsi və s. məsələlər təlqin olunmuşdur.

Azərbaycançılıq ideyasının formalaşmasında ötən əsrin 90-cı illərində - dövlət müstəqilliyinin bərpası ərəfəsində başlanmış əvvəlcə xalq, sonra isə milli azadlıq hərəkatının əhəmiyyətli rolu olmuşdur. Bu dövrdə azərbaycançılıqla bağlı müxtəlif əsərlərin yenidən çap olunması və yayılması, yeni kitab və məqalələrin yazılması, milli şüurun, ruhun yüksəlişinə xidmət edən xalq hərəkatının vüsət alması insanların kütləvi düşüncə tərzinə öz müsbət təsirini göstərdi. Lakin təəssüf hissi ilə qeyd edilməlidir ki, o illərdə Azərbaycanı yönəldən qüvvələr, xüsusən AXC-Müsavat dairələri respublikanın milli-etnik xüsusiyyətlərini nəzərə almadan, meydan əhval-ruhiyyəsi altında azərbaycançılığın təbliğində kobud səhvlərə yol verdilər. Onlar azərbaycançılığı milli müstəsnalıq kimi təqdim edərək onu ümumtürklük ideyası ilə eyniləşdirdilər və bununla da respublikada ölkədaxili etnik və milli etimadsızlıq mühiti yaratdılar. Bu da müvafiq olaraq, həmin dövrdə azərbaycançılıq ideyasının həyatiliyinə, ümumi cəlbediciliyinə ciddi zərbə vurdu.

1993-cü ildən Heydər Əliyevin siyasi rəhbərliyə qayıdışı ilə bütün Azərbaycan vətəndaşlarının, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkənin istiqlaliyyətini dəstəkləyən insanların vahid dövlətçilik ətrafında birləşdirilməsi üçün ciddi iş aparıldı. Cəmiyyətdə hakim olan istiqlal arzusu, azərbaycançılığın müstəqil dövlətin bütün əhalisinin ali ideologiyasına çevrilməsi, ümummilli birliyin təmin olunması zərurəti tezliklə ictimai-siyasi və elmi-mədəni dairələrin gündəliyinə çıxarıldı. Bunun ardınca, Azərbaycan dilinin rəsmi dövlət dili statusu alması və latın qrafikasının tətbiqi, milli-mənəvi dəyərlərin qorunması, inkişafı və azərbaycançılıq ideyaları ilə birgə bütün dünyada yaşayan həmvətənlərimiz arasında geniş yayılması, 31 dekabrın hər il Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi və bu münasibətlə xarici ölkələrdə yaşayan soydaşlarımızın iştirakı ilə təşkil olunan toplantılar, xarici səfərlər zamanı Heydər Əliyevin həmvətənlərimizlə keçirdiyi görüşlər və s. 1993-cü ildən başlayaraq azərbaycançılıq ideologiyasının dövlət siyasəti səviyyəsinə qaldırılmasının bariz nümunələri idi.

Müstəqilliyinin ilk illərində, xüsusən 1991-1994-cü illərin təhlükəli milli-vətəndaş qarşıdurması və ictimai-siyasi böhranı dövründə Heydər Əliyev azərbaycançılıq ideyasını daha çox ölkədaxili ictimai-siyasi qüvvələrin, sosial, milli və dini qrupların birləşdirici amili kimi təlqin edir və bu istiqamətdə onu inkişaf etdirməyə çalışırdı. O, mövcud təhlükəli vəziyyəti dəyərləndirərək qeyd edirdi ki, hakimiyyətə, iqtidarlara və onların fəaliyyətinə müxalifətdə durmaq olar. Lakin dövlətə, dövlətçiliyə, milli birliyə, Vətənin, xalqın ümumi marağını ehtiva edən azərbaycançılıq ideyasına, milli-mənəvi dəyərlərə, milli məsləkə, milli dilə, milli varlığa heç zaman müxalifətdə durmaq olmaz.

Göründüyü kimi, Heydər Əliyevin dövlətçilik təlimi - azərbaycançılıq ideologiyası, ilk növbədə, bütün ölkə vətəndaşlarından Azərbaycanın dövlətçilik maraqlarına, xalqımızın milli-mənəvi dəyərlərinə, dövlət dilinə həqiqi sevgi və qayğı tələb edirdi. Sonrakı illərdə, xüsusən də 1995-ci ildə Azərbaycanın yeni Konstitusiyasının hazırlanması və qəbulu ərəfəsində Heydər Əliyev azərbaycançılıqla bağlı əvvəlki illərdə səsləndirdiyi fikirlərini bir qədər də inkişaf etdirərək, bu birləşdirici ideyaya tamamilə yeni bir hüquqi-siyasi və ideoloji məzmun verdi, onu tamamilə ölkənin milli-etnik xüsusiyyətlərinə və dünyanın müasir şəraitinə uyğunlaşdırdı. Odur ki, bu gün çəkinmədən və inamla söyləmək olar ki, Heydər Əliyev müasir azərbaycançılıq ideologiyasının - dövrün, zamanın tələblərini, dövlətçiliyin əsaslarını, milli-etnik şəraiti nəzərə alan milli təlimin banisidir. Çünki azərbaycançılıq ideologiyası məhz Ulu Öndərin dövründə həqiqi siyasi-ideoloji məzmun alaraq mükəmməl bir təlimə çevrildi və müstəqil dövlət ideologiyası səviyyəsinə qaldırıldı. Azərbaycançılıq ideologiyası sonrakı illərdə mükəmməl bir konsepsiya kimi tədricən bütün Azərbaycan vətəndaşlarının, dünyada yaşayan əksər həmvətənlərimizin, Azərbaycanla bağlılığı olan hər bir soydaşımızın milli birlik platforması rolunu oynamağa başladı. Əgər Heydər Əliyevə qədər azərbaycançılıq ideyası əsasən etnolinqvistik, ədəbi-bədii, mədəni-estetik, fəlsəfi və mənəvi dəyər kimi mövcud idisə, onun dövründə ciddi hüquqi-siyasi məzmun alaraq bitkin ideyalar sisteminə - dövlət quruculuğunun ayrılmaz tərkib hissəsinə çevrildi.

2001-ci ildə Bakıda tarixdə ilk dəfə Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi və minlərlə soydaşımızın iştirakı ilə azərbaycançılığın əsaslarının bir daha geniş müzakirə edilməsi, mövcud vəziyyətin qiymətləndirilməsi və gələcək vəzifələrin müəyyən olunması milli ideologiyamızın formalaşması və daha da inkişafında yeni bir mərhələ kimi dəyərləndirilə bilər.

Heydər Əliyevin yaratdığı azərbaycançılıq ideologiyası və onun məzmununa daxil edilmiş əsas prinsiplər 1995-ci ildə ümumxalq referendumu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Ümummilli Lider dövlətçilik maraqlarının qorunması deyəndə, ilk növbədə, hamılıqla qəbul etdiyimiz ölkənin Ali Qanununun - Konstitusiyanın müddəalarına əməl olunmasını nəzərdə tuturdu. Bu normalar, ilk növbədə, hər bir Azərbaycan vətəndaşının ümummilli vəzifəsi kimi ölkənin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasında iştirakını, vətəndaş cəmiyyətinin bərqərar olunmasını, xalqın iradəsinə, qanunların aliliyinə əsaslanan hüquqi, dünyəvi dövlət qurulmasını, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsinin təmin edilməsini, ümumbəşəri dəyərlərə sadiqliyi, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və s. ehtiva edir.

Göründüyü kimi, Ümummilli Liderin azərbaycançılıq ideologiyasının təməlində, ilk növbədə, güclü Azərbaycan dövlətçiliyi prinsipi, ümumazərbaycançılıq qayəsi (vətəndaş birliyi və tolerantlıq ideyası), ədalətli və hamı üçün məqbul olan ictimai həyat normaları, ölkənin hər bir vətəndaşının Azərbaycan dövlətini özünün güvənc yeri sayması, bu Vətəni özünün qürur mənbəyi hesab etməsi, başqa etnik-dini mənsubiyyəti olan vətəndaşlarla bəşəri birgəyaşayış qaydaları əsasında ünsiyyət qurması və s. ali dəyərlər dayanır.

Heydər Əliyevin azərbaycançılıq ideologiyasında mərkəzi yerdə dayanan güclü Azərbaycan dövləti anlayışı xalqımızın çoxəsrlik dövlətçilik ənənələrinə söykənərək onları daim yaşadacaq və zənginləşdirəcək bir idarəçilik institutudur. Bu dövlətin təkmil mərkəzi və yerli idarəetmə mexanizmləri, sabit ictimai-siyasi həyatı, işlək qanunları olmalı, hər bir vətəndaşının imkan və bacarıqları lazımi səviyyədə dəyərləndirilməli və qabiliyyətinə görə proseslərə cəlb edilməli, ölkədə şəffaf, tolerant və multikultural mühit hökm sürməli, ümumvətəndaş birliyi dövlətçiliyin təməlində dayanmalıdır.

Beləliklə, yuxarıda aparılmış təhlildən də göründüyü kimi, azərbaycançılıq ideologiyası artıq hansısa bir siyasi liderin, partiyanın, yaxud siyasi təşkilatın deyil, bütün Azərbaycan xalqının ümumi maraqlarının ifadəsinə çevrilib. Belə olan halda, bu ideologiyaya müxalifətdə durmaq ümumxalq maraqlarına, ümumxalq fikrinə və mövqeyinə müxalifətdə durmaq kimi dəyərləndirilməlidir. Azərbaycançılıq ideologiyası bu anlamda xalqın istəyi, arzusu və iradəsi ilə qurulmuş dövlətin, bu dövlətin müəyyən olunmuş daxili və xarici siyasət strategiyasının, daimi yaşam və fəaliyyətinin əsasını, başlıca prinsiplərini təşkil edir. Deməli, onun həyata keçirilməsi və qorunması Azərbaycanda yaşayan, fəaliyyət göstərən, bu dövlətin idarəçiliyinə iddia edən hər bir vətəndaş və təşkilat üçün əsas olmalıdır. Əgər hər hansı şəxs və yaxud təşkilat yaşadığı cəmiyyəti, təmsil etdiyi dövləti, Konstitusiya ilə müəyyənləşdirilmiş ölkədaxili münasibətlər və dəyərlər sistemini qəbul edirsə, deməli, dövlətin də bu sistemin təminatçısı olmasını mütləq qəbul etməlidir.

Ardı Səh. 7

# Heydər Əliyev müasir azərbaycançılıq ideologiyasının banisidir

Əvvəli Səh. 6

Heydər Əliyev azərbaycançılıq ideologiyasını müəyyənləşdirərkən həm də beynəlxalq aləmdə cərəyan edən hadisələri, müasir dünya siyasətini, qloballaşan və transmilliləşən dünyanın inkişaf meyillərini nəzərə alırdı. Əlbəttə, qloballaşan dünyada ölkələrin milli maraqlarını, milli-mənəvi və əxlaqi dəyərlərini qorumaq o qədər də asan olmur. Transmilli şirkətlər və onların arxasında duran fövqəldövlətlər ölkələrin milli inkişafı, milli mənafeləri, milli-mənəvi dəyərlərin qorunması və sair prosesləri çox qısqanclıqla qarşılayırlar. Heydər Əliyev bütün bu reallığı nəzərə alaraq, bir tərəfdən azərbaycançılıq ideologiyasını ümumbəşəri dəyərlər fonunda formalaşdırır, digər tərəfdən dövlət quruculuğu proseslərində xarici təsirləri milli ideologiya süzgəcindən keçirirdi.

Heydər Əliyev azərbaycançılıq ideologiyasını formalaşdırarkən milli-mənəvi dəyərləri, tarixi keçmişimizdən bizə miras qalmış milli varlığımızı və onu fərqləndirən bütün atributları qorumaqla yanaşı, Azərbaycanı, eyni zamanda, müasir, inkişaf etmiş, xalqın maddi-mənəvi tələbatını təmin edə bilən, daxili həyatı sabit, multikultural dəyərlərə, milli və sosial birliyə qovuşmuş bir dövlət kimi görürdü.

Heydər Əliyev azərbaycançılıq ideologiyasının əsasına, ilk növbədə, dünyada yaşayan 40 milyondan çox azərbaycanlının maraqlarını təmin edə biləcək, bütün ölkə vətəndaşlarının sabit, firavan və dinamik inkişafına cavab verən milli dövləti - müstəqil Azərbaycan dövlətini qoyurdu.

Ulu öndər Heydər Əliyev çıxışlarında bu məsələyə belə şərh verirdi: Müstəqil Azərbaycan dövləti bizim üçün ən qiymətli tarixi nailiyyətdir və onun qorunması, əbədiyaşar edilməsi hər bir azərbaycanlının müqəddəs borcudur. Milli ideologiyadan danışarkən biz, ilk növbədə, bütün xalqımızı, xüsusən gəncləri Azərbaycanın müstəqil dövlətçiliyi prinsiplərinə sadiq olmaq ruhunda tərbiyə etməliyik.

Heydər Əliyev Azərbaycan dövlətini azad, ədalətli, demokratik, siyasi plüralizmin, tolerant mühitin, multikultural dəyərlərin hökm sürdüyü, vətəndaş cəmiyyətinə malik bir ölkə kimi görmək istəyirdi və daim buna çalışırdı. 1995-ci ildə çoxpartiyalı sistem əsasında ilk parlament seçkilərinin keçirilməsi, ölkənin ilk Konstitusiyasının qəbul edilməsi, Avropanın demokratik institutları ilə Azərbaycanın əlaqələrinin gücləndirilməsi Ümummilli Liderin öz ölkəsinin gələcəyi ilə bağlı mövqeyinin göstəricisi idi. Azərbaycanda əsl çoxpartiyalı sistemin, azad, plüralist cəmiyyətin, qeyri-hökumət təşkilatlarının, müstəqil mətbuatın yaradılması və inkişafı da Heydər Əliyevin bilavasitə səyi ilə həyata keçirilib.

Heydər Əliyevin dövlət təlimi və milli ideyasında ikinci əsas yeri insan amili - millətini və xalqını sevən, dövlətinin yolunda hər bir şücaətə hazır olan, milli-mənəvi dəyərlərini yaşadan, dövlət dilini bilən və sevən, ədalətli və təşəbbüskar, fəal mövqeli və iradəli Azərbaycan vətəndaşı tuturdu. Ulu Öndər öyrədirdi ki, hər hansı dövlətin gücü heç də onun böyüklüyü, yaxud kiçikliyi ilə ölçülmür. Əgər ölkənin vətəndaşı gördüyü işin onun özünə, ailəsinə və xalqına gətirəcəyi xeyri əvvəlcədən anlayır və ədalət prinsipi ilə öz zəhmətinin nəticəsini alırsa, həmin ölkə vətəndaşları daha ideyalı, əzmli və iradəli, belə ölkələr isə bir qayda olaraq güclü, qüdrətli və əzəmətli olurlar.

Ümummilli Liderin dövlət təliminə görə dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşları qanun və ədalət qarşısında bərabərdir. Təsadüfi deyil ki, 1993-cü ildə Heydər Əliyevin idarəçilik fəaliyyətinin mühüm bir sahəsini Azərbaycanda harmonik cəmiyyətin yaradılması, insan potensialının quruculuq işlərinə cəlb edilməsi, sosial ədalət prinsiplərinin bərqərar olması və insanların öz dövlətinə inamının artırılmasına xidmət təşkil etmişdir. Heydər Əliyevin milli həmrəylik və vətəndaş birliyi ideyası, insan resurslarından səmərəli istifadə, hər bir vətəndaşın öz dövlətinə bağlılığı, dövlətin hər bir insana, hər bir insanın isə dövlətçiliyinə xidmət etməsi amalı 1995-ci ildə qəbul olunmuş Konstitusiyada da əksini tapmışdır.

Azərbaycançılıq ideologiyasının mahiyyətini təşkil edən əsaslardan biri də Heydər Əliyev üçün milli-mənəvi dəyərlərin, ana dilinin və mədəniyyətin qorunub saxlanması və inkişaf etdirilməsi idi. Ulu Öndər bununla bağlı qeyd edirdi ki, milli ideologiyamızın konsepsiyası tarixi keçmişimizi, milli adət-ənənələrimizi, dilimizi, dinimizi və mədəniyyətimizi əks etdirməli, bu dəyərlərin qorunub saxlanılmasına və inkişafına xidmət etməlidir.

"Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" Bu ifadələr Ümummilli Liderimizin milli-mənəvi dünyasını, vətəndaş mövqeyini və varlığını göstərən, öz milli köklərinə bağlılığını sübut edən tarixi bir bəyanat idi.

Heydər Əliyev azərbaycançılıq ideologiyasından danışarkən layiqli vətəndaş, xüsusən hərtərəfli inkişaf etmiş gənc nəslin yetişdirilməsi məsələsini xüsusi fərqləndirirdi. O, Azərbaycan gənclərini sərbəst düşüncə tərzinə malik, cəmiyyətdə və dünyada gedən proseslərdən baş çıxara bilən, vətənpərvər, dövlətçilik təfəkkürü güclü olan savadlı, bacarıqlı, intellektli insanlar kimi görürdü. Ümummilli Lider qeyd edirdi: Biz elə bir nəsil yetişdirməliyik ki, o, öz dövlətini sevsin, onu qorumağı, yaşatmağı və bütün dünyada layiqincə təmsil etməyi bacarsın. Gənc nəsil öz milli adət-ənənələrinə sadiq olmalı, ana dilini, milli mədəniyyətimizi dərindən öyrənməli, eyni zamanda, bəşəri dəyərləri mənimsəməlidir.

Ölkəmizin tarixinin mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərliyin ağır məsuliyyətini öz üzərinə götürmüş Heydər Əliyevin dövlətçilik təlimi və onun ayrılmaz tərkib hissəsi olan azərbaycançılıq ideologiyası müstəqil Azərbaycanın bugünkü varlığının və gələcək inkişafının əsasını təşkil edir.

Ulu Öndərin siyasi xəttini ardıcıl olaraq davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev onun müstəqil dövlət quruculuğu yolundakı nəzəri və praktiki irsinə qiymət verərək demişdir: "1993-2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi tarixdə qalacaqdır. Çünki məhz o illərdə dövlətçiliyin əsasları qoyuldu, Azərbaycan dövləti quruldu, 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edildi, dövlətçiliyin ideoloji əsasları - azərbaycançılıq məfkurəsi formalaşdırıldı... Heydər Əliyev tərəfindən yaradılan bu əsaslar hazırda Azərbaycan xalqına yol göstərir".

Ötən 16 ildə Prezident İlham Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin, ana dilinin inkişafı və saflığının qorunmasını, gənclərin vətənpərvərlik tərbiyəsini, xalqımızın tarixi irsinin yaşadılmasını, ölkə daxilində tolerantlıq mühitinin və multikultural dəyərlərin möhkəmləndirilməsini və s. məsələləri dövlət siyasətinin tərkib hissəsinə çevirməsi onun Heydər Əliyevin dövlətçilik təliminə verdiyi ciddi əhəmiyyətin və bu təlimi yaradıcı şəkildə inkişaf etdirməsinin əyani təzahürüdür. Prezident İlham Əliyevin rasional, uzaqgörən və praqmatik siyasəti, cəsarətli addımları, güclü liderlik keyfiyyətləri və yorulmaz gündəlik əməyi sayəsində Azərbaycan dövləti Ulu Öndərin müəyyənləşdirdiyi strateji vəzifələrin öhdəsindən uğurla gəlir və gələcəyə doğru inamla irəliləyir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası hazırda öz tarixinin ən yüksək inkişaf dövrünü yaşayır. Geridə qoyduğumuz 16 il ərzində ölkədə ictimai-siyasi sabitlik qorunub saxlanılıb, demokratik institutlar möhkəmləndirilib, iqtisadiyyat gücləndirilib, əhalinin maaşları, pensiya və müavinətləri dəfələrlə artırılıb. Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 35-ci, inkişaf etməkdə olan ölkələr arasında isə 3-cü yerə yüksəlib. Prezident İlham Əliyev müasir mürəkkəb geosiyasi vəziyyətdə düşünülmüş və ardıcıl siyasət yürüdür, dövləti beynəlxalq səviyyədə layiqincə təmsil edir.

Dövlətimizin başçısı İlham Əliyev qazanılmış nailiyyətlərin səbəblərinə qiymət verərkən həmişə iki amili xüsusi qeyd edir: xalqın etimadı və Heydər Əliyev ideyalarına, onun siyasi kursuna sədaqət. 2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkilərində İlham Əliyevin parlaq qələbəsi Azərbaycan xalqının yüksək etimadının və öz liderinə olan inamının əyani təzahürü idi. Bu qələbənin zəruri şərti isə Ulu Öndərin ideyalarına olan sədaqət, onun müəyyənləşdirdiyi yolun bacarıqla davam etdirilməsidir.

Ulu öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdışından - oktyabr ayının 3-də ilk dəfə Prezident seçilməsindən 26 il ötür. Onun Azərbaycanın tərəqqisinə xidmət edən səmərəli dövlətçilik siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gündən-günə modernləşən Azərbaycan Respublikası bu il 96 illiyini böyük ehtiramla qeyd etdiyimiz Ulu Öndərin işıqlı xatirəsinə ən böyük töhfədir. Milli dövlətimiz durduqca Heydər Əliyev Azərbaycan xalqının qəlbində yaşayacaq, onun nurlu ideyaları daim yolumuza işıq salacaqdır.

# Türkiyəli alim: "Ermənistanın təcavüzkar siyasətinə beynəlxalq səviyyədə yetərincə reaksiya göstərilməməsi ciddi təhlükədir"

***Müasir dövrdə dövlət sərhədlərinin güclə dəyişdirilməsi cəhdi beynəlxalq hüquqa ziddir. Dağlıq Qarabağ tarixi Azərbaycan torpağı olmaqla bərabər keçmiş SSRİ qanunları ilə də Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınıb. Bütün bunları təsdiq edən tarixi, siyasi, hüquqi sənədlər var.***

Bu sözləri Türkiyənin Hacettepe Universitetinin beynəlxalq hüquq üzrə müəllimi, hüquq elmləri doktoru Bahadır Bumin



Özarslan Ermənistanın baş naziri Nikol Paşinyanın BMT-dəki çıxışını AZƏRTAC-a şərh edərkən bildirib. Ermənistanın təcavüzkar siyasətinə beynəlxalq səviyyədə yetərincə reaksiya göstərilməməsini region üçün ciddi təhlükə mənbəyi kimi dəyərləndirən alim deyib: "Əvvəllər olduğu kimi, Ermənistanın hazırkı rəhbərinin də dəyişməyən əsassız iddialarından və aqressiv mövqeyindən asılı olmayaraq, Azərbaycan özünün sərhədlərini qorumaq, o cümlədən Dağlıq Qarabağ bölgəsi üzərində suverenliyini bərpa etmək üçün beynəlxalq hüququn müəyyən etdiyi haqlara sahibdir. Paşinyanın məlum çıxışı yalan və böhtan üzərində qurulmuşdu. Dağlıq Qarabağla bağlı minillikləri əhatə edən tarixi faktlar, ötən əsrin əvvəllərindən günümüzədək qəbul edilən siyasi və hüquqi sənədlər Azərbaycanın tərəfindədir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qəbul olunmuş bütün beynəlxalq sənədlər işğalçı hərbi qüvvələrin bölgədən çıxarılmasını, Azərbaycanın ərazi bütövlüyünün bərpasını tələb edir. Ermənistanın BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qərar və qətnamələrinə məhəl qoymaması-na gəldikdə, bu, təkcə Azərbaycanın problemi deyil, eyni zamanda, BMT-ni də fakt qarşısında qoyur".

## Bu gün "jurnalistlər binası"nda yerləşən mənzillərə dair çıxarışlar təqdim ediləcək

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən oktyabrın 2-də Prezident İlham Əliyevin 2013-cü il 22 iyul tarixli Sərəncamı ilə jurnalistlər üçün inşa edilmiş və onların mülkiyyətinə verilmiş ikinci binada səyyar qeydiyyat xidməti göstəriləcək, jurnalistlərin mənzillərinə dair elektron çıxarışın hazırlanması üçün ilkin sənədlər toplanacaq.



Komitədən AZƏRTAC-a bildiriblər ki, tədbir oktyabrın 2-də saat 10:00-da Bakı, Yeni Salyan yolunda yerləşən, jurnalistlərə verilən ikinci binanın həyətində baş tutacaq.

# “Əhalinin siyahıyaalınmasından əldə ediləcək məlumatlar ölkənin gələcək inkişafı üzrə qərarlarda əsas informasiya mənbəyi olacaq”

***Oktyabrın 1-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində Dövlət Statistika Komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü Tahir Budaqov oktyabrın 1-dən 10-dək ölkəmizdə başlayan əhalinin növbəti siyahıyaalınmasına həsr olunan mətbuat konfransı keçirib.***




AZƏRTAC xəbər verir ki, komitə sədri Prezident İlham Əliyevin “2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında” 2016-cı il 7 sentyabr tarixli Fərmanının icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 2016-cı il 16 dekabr tarixli Qərarına əsasən və Dövlət Statistika Komitəsinin təsdiq etdiyi təqvim planına uyğun olaraq siyahıyaalma ilə bağlı bütün hazırlıq işlərinin tam başa çatdırıldığını deyib. Bildirib ki, siyahıyaalma zamanı əhalinin tam əhatə olunması üçün dolğun uçotun təşkil edilməsi, siyahıyaalmanın rayonlaşdırılması, şəhər, qəsəbə və kəndlərin ərazilərinin siyahıyaalma, təlimatçı və sayıcı məntəqələrinə düzgün bölüşdürülməsinin təmini üçün xüsusi əhəmiyyət daşıyan şəhər, rayon və şəhər rayonları üzrə təşkilati planların tərtib olunması məqsədilə formalar, habelə “Əhalinin siyahıyaalınması ilə bağlı Azərbaycan Respublikasının inzibati ərazi vahidləri üzrə təşkilati planların tərtib edilməsinə dair göstərişlər”, 50-dək digər metodoloji və köməkçi sənədlər hazırlanıb, siyahıyaalma və sorğu vərəqələri Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyada təmsil olunan 19 dövlət qurumu, həmçinin Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə razılaşdırılaraq təsdiqlənib.

O qeyd edib ki, təsərrüfatbaşına uçot sənədləri Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən Dövlət Statistika Komitəsinə təqdim edilmiş inzibati ərazi vahidlərinin sxematik xəritələri, yaşayış məntəqələrinin sxematik planları əsasında Azərbaycanın inzibati ərazi vahidləri üzrə təşkilati planlar tərtib olunub, bunun nəticəsində ölkə ərazisi 720 siyahıyaalma, 6777 təlimatçı və 33 min 907 sayıcı məntəqəsinə bölünüb, siyahıyaalma məntəqələrinin işçilərlə komplektləşdirilməsi və onların təlimatlandırılması başa çatdırılıb. Daxili İşlər, Müdafiə, Fövqəladə Hallar, Ədliyyə, Səhiyyə, Təhsil nazirliklərinin, Dövlət Təhlükəsizlik, Miqrasiya və Sərhəd xidmətlərinin tabeliyində olan rejimli obyektlərdəki şəxslərin, xarici ölkələrdə müvəqqəti yaşayan Azərbaycan Respublikası vətəndaşlarının siyahıyaalınması məqsədilə metodoloji və digər sənədlər, əyani vəsaitlər, dəftərxana ləvazimatları aidiyyəti dövlət qurumlarına çatdırılıb.

T.Budaqov vurğulayıb ki, siyahıyaalınma ilə bağlı əhalinin məlumatlandırılması məqsədilə hazırlanmış təşviqat materiallarından plakat və bannerlər yerli icra hakimiyyətləri tərəfindən müəyyən edilmiş dislokasiya üzrə yerləşdirilib, videoçarxlar isə apreldən başlayaraq televiziya kanalları və aparıcı elektron media vasitələrində, Bakı Metropolitenində, Dənizkənarı Milli Parkda və Dövlət Reklam Agentliyinin paytaxtın mərkəzi küçə və prospektlərində quraşdırılmış elektron lövhələrində yayımlanmaqdadır. Siyahıyaalmaya dair çoxsaylı mətbu məqalələr müxtəlif KİV orqanlarında müntəzəm olaraq dərc edilib, mətbuatda fərdi jurnalist yazılarının da stimullaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ilə birgə cari il iyulun 18-də müsabiqə də elan olunub.

Komitə sədri əlavə edib ki, müstəqillik dövründə sayca üçüncü dəfə keçirilən siyahıyaalmanın sorğu vərəqəsində altsuallarla birlikdə 46 sual, siyahıyaalma vərəqəsində isə 6 sual olmaqla ümumilikdə 52 sual öz əksini tapıb. Siyahıyaalma vərəqəsi ölkə üzrə ev təsərrüfatlarının və ailələrin sayına, yaşayış binaları və evlərə, yaşayış üçün istifadə edilən digər tikililərə dair ətraflı məlumatların əldə olunmasına imkan verəcək. Sorğu vərəqəsində isə siyahıya alınacaq hər bir şəxsin cinsi, yaşı, doğulduğu yer, vətəndaşlığı, milli və ya etnik mənsubiyyəti, ana dili və sərbəst danışdığı dillər, ailə vəziyyəti, siyahıyaalma anında olduğu yerdə daimi və ya müvəqqəti yaşaması, təhsil səviyyəsi, gəlir mənbələri, məşğulluq vəziyyəti, əlilliyi, əhalinin ölkədaxili yerdəyişməsinin və xarici miqrasiyanın səbəbləri və sair mühüm göstəricilər üzrə suallar öz əksini tapıb.

O bildirib ki, siyahıyaalma başa çatdıqdan sonra siyahıyaalma materialları ilin sonunadək Siyahıyaalma qrupuna təhvil veriləcək, 2020-ci il ərzində işə qəbul ediləcək operatorlar vasitəsilə onların elektron məlumat sisteminə daxil edilməsi, proqram təminatı vasitəsi ilə məntiqi yoxlanılması prosesi həyata keçiriləcək. Sonrakı ilyarım ərzində siyahıyaalma məlumatları emal ediləcək, əldə olunacaq çıxış cədvəlləri əsasında siyahıyaalmanın yekunlarına dair məcmuələr nəşr edilərək istifadəçilərə çatdırılacaq.

T.Budaqov oktyabrın 1-10-da respublikada əhalinin siyahıyaalınmasının uğurla həyata keçirilməsi, yeni əhaliyə dair demoqrafik, iqtisadi və sosial əlamətlər üzrə dolğun məlumatların əldə edilməsi üçün ilk növbədə bu prosesdə vətəndaşların fəal iştirakının, habelə siyahıyaalma və sorğu vərəqələrindəki sualların düzgün cavablandırılmasının vacibliyini qeyd edib. Bildirib ki, siyahıyaalma suallarına verilən dolğun və düzgün cavablar hər şeydən əvvəl bir vətəndaşlıq borcudur, çünki siyahıyaalmadan əldə olunacaq məlumatlar ölkəmizin gələcək inkişafı məqsədilə qəbul ediləcək qərarlar üçün əsas informasiya mənbəyi olacaq, bundan üzvü olduğumuz bütün cəmiyyət bəhrələnəcək.

Sonra KİV nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

## Əli Əhmədov: “Mitinq üçün ən yaxşı yer stadiondur”



Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) Sədr müavini - İcra katibi Əli Əhmədov Milli Şuranın oktyabrın 8-də Bakı Şəhəri İcra Hakimiyyətinin inzibati binasının qarşısında razılaşdırılmamış piket keçirmək barədə qərarına münasibət bildirib. SİA-nın verdiyi məlumata görə, Ə.Əhmədov deyib ki, o şey ki, icazəsizdir, onu etmək olmaz.

Ə.Əhmədov vurğulayıb ki, onlara Qaradağ rayonunun Lökbatan qəsəbəsində yer ayrılıb: “Lökbatan Bakı şəhərinə daxildir. Yəqin ki, bunu özləri də bilirlər. Sadəcə onlar mitinqi insanların kütləvi olduğu yerdə keçirmək, bununla da özlərinin sosial bazalarının guya çox olduğunu göstərmək istəyirlər. Mitinq üçün ən yaxşı yer stadiondur. Nə qədər adamları var, Lökbatana stadiona dəvət etsinlər, mitinqlərini keçirsinlər. Bəhanə gətirməsinlər ki, Lökbatan uzaqdır. Mən hesab etmirəm ki, Lökbatan uzaqdır. Xüsusi ilə qeyd etmək istəyirəm ki, biz YAP olaraq vaxtilə həmin stadionda mitinqlər keçirmişik”.

## Sona Vəliyevanın romanı Rusiyada nəşr edilib




Rusiyanın çox məşhur “Xudojestvennaya literatura” nəşriyyatına tanınmış yazıçı Sona Vəliyevanın görkəmli Azərbaycan maarifçisi Həsən bəy Zərdabinin ömür yoluna həsr edilmiş “İşığa gedən yol” romanı rus dilində nəşr olunub.

Romanı rus dilinə Nadejda Qafarova çevirib. Kitabın redaktoru P.Orlovadır. Kitaba “Yaradıcı mütəfəkkir” “ön söz”ü nəşriyyatının baş redaktoru, akademik, rus dili və ədəbiyyatı Akademiyasının vitse-prezidenti, Rusiya Yazıçılar İttifaqının katibi Georgi Pryaxin yazıb.

## “Qazi və ya deputat olmaq heç kəsə qanunu pozmaqla bağlı əlavə üstünlük vermir”



Milli Məclisin deputatı, Qarabağ müharibəsi veteranı Elman Məmmədov özlərini Qarabağ əlili kimi təqdim edərək SOCAR-ın Neft Kəmərlərinin Mühafizə İdarəsinin əməkdaşlarına xəsarət yetirən şəxslərin qeyri-qanuni hərəkətlərini pisləyib. Deputat E.Məmmədov açıqlamasında bildirib ki, qazi və ya veteran olmaq heç kəsə qanunu pozmaqla bağlı əlavə üstünlük vermir: “Əgər bu hadisə ilə bağlı qanun kim tərəfindən pozulubsa, o, qanun qarşısında məsuliyyət daşıyır. Fərqi yoxdu, onlar ya SOCAR əməkdaşı, yaxud da veteranlar olub. Hər kəs qanun qarşısında bərabərdir”.

Deputat deyib ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi altında Qarabağ qazilərinə, müharibə veteranlarına və əlillərə xüsusi diqqət göstərilir: “Bu, çox vacib məsələdir. Hesab edirəm ki, bu diqqət və qayğını bir qədər də gücləndirmək lazımdır. Əgər bu insanlar Vətən uğrunda döyüşüb sağlamlıqlarını itiriblərsə, yaxud da itirməsələr belə, onlar daim dövlət qayğısı ilə əhatə olunmalıdır. Ancaq məsələnin bir tərəfini yaddan çıxarmaq olmaz. Yəni, kimliyindən asılı olmayaraq, qanunu pozmaq yolverilməzdir. Hər kəs qanun qarşısında bərabər məsuliyyət daşıyır. Nə vəzifəli, nə vəzifəsiz, nə veteran, nə qazi, nə də deputat qanunu poza bilər. Dövlətin qanununu kim tərəfindən pozulursa, o da qanun qarşısında məsuliyyət daşıyır. Mən də müharibə veteranıyam, amma bu, o demək deyil ki, nə istəsəm, edə bilərəm”.

# “Veteran adından istifadə edərək qanuna uyğun olmayan hərəkətlərə yol vermək qəbuledilməzdir”



***“Xüsusi statuslu və imtiyazlı insanlara qanuna qarşı hörmətsizlik etmək və ya qanundan yayınmaq imkanı verilməyib. Hər bir vətəndaş Azərbaycan Respublikasının Konstitusiyası qarşısında bərabər olduğu kimi, onlar da qanun qarşısında cavab verməli, etdiyi əməllərə görə məsuliyyət daşımalıdırlar”. Bu fikirləri SİA-ya “Səs” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev özlərini Qarabağ əlili kimi təqdim edən bir qrup şəxsin SOCAR-ın Neft Kəmərlərinin Mühafizə İdarəsinin əməkdaşlarına xəsarət yetirməsinə münasibət bildirərkən deyib.***

Baş redaktor bildirib ki, qanun şahdır, şah qanun deyil: “İstər Qarabağ əlilləri, qazilər, müharibə veteranları, istərsə məmurlar, deputatlar, istərsə də digərləri qanun qarşısında eyni olduqlarını bilməlidirlər. Şəhid ailəsinin, veteranın, Qarabağ qazisinin öz imtiyazından sui-istifadə etməsi eyni kateqoriyadan olan bütün şəxslərə hörmətsizlikdir, bu, qətiyyən yolverilməzdir. Mən də veteran olduğuma görə özümdə bu fikri demək haqqı tapıram ki, veteran adından istifadə edərək qanuna uyğun olmayan hərəkətlərə yol vermək qəbuledilməzdir”.

B.Quliyev qeyd edib ki, Azərbaycan dövləti tərəfindən həssas qruplara - şəhid ailələrinə, müharibə veteranları və əlillərə, qaçqın və məcburi köçkünlərə xüsusi diqqət göstərilir, onların sosial rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl, məqsədyönlü, kompleks xarakterli tədbirlər həyata keçirilir.

Onun sözlərinə görə, lakin bir qrup şəxs müharibə veteran və Qarabağ qazisi adından istifadə edərək dövlətin bu kateqoriyadan olan insanlara yüksək qayğısının, bu istiqamətdə görülən işlərin üzərinə kölgə salmağa çalışırlar: “Onlar qanunazidd hərəkətlərə yol verməklə dövlət strukturlarını hədəfə alaraq mənfi ictimai rəy formalaşdırmağa çalışırlar. Azərbaycan ictimaiyyəti bu cür davranışları qətiyyətlə pisləyir”.

***Nailə Məhərrəmova***

# Hərbi Prokurorluqda Azərbaycan Prokurorluğunun yaranmasının 101 illiyinə həsr olunan mərasim keçirilib

***Oktyabrın 1-də Azərbaycan Respublikası Hərbi Prokurorluğunun mərkəzi aparatında Azərbaycan Prokurorluğunun yaranmasının 101 illiyinə həsr olunmuş mərasim keçirilib. Tədbirdə Respublika Hərbi Prokurorluğunun, Bakı Hərbi Prokurorluğunun əməkdaşları və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.***





Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbir iştirakçıları əvvəlcə qurumun inzibati binasında yerləşən Heydər Əliyev guşəsində Ümummilli Liderin büstü önünə gül dəstələri düzərək böyük şəxsiyyətin əziz və unudulmaz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Mərasimi giriş nitqi ilə açan Azərbaycan Respublikası Baş prokurorunun müavini - Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, Azərbaycan Prokurorluğu 80 il ərzində dövlətin etibarlı sütunlarından biri kimi fəaliyyət göstərsə də, prokurorluq işçilərinin peşə bayramının qeyd edilməsi ilə əlaqədar dövlət səviyyəsində heç bir təşəbbüs göstərilməyib, bununla əlaqədar hər hansı rəsmi tədbir görülməyib. Məhz ulu öndər Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə 1 oktyabr-Prokurorluq işçilərinin peşə bayramı gününün təsis edilməsi tarixi ədalətin bərpa edilməsi ilə yanaşı, hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğa dövlət səviyyəsində qayğının ifadəsi və prokurorluğun roluna rəsmi münasibətin təzahürüdür.

Hərbi prokuror Xanlar Vəliyev ulu öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış müdrik siyasətini yeni müstəvidə və dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə olunmuş böyük uğurlardan və görülən nəhəng işlərdən, dövlətimizin daha da qüdrətlənməsindən, xalqımızın maddi və sosial rifah halının davamlı olaraq yaxşılaşdırılmasından danışıb.

Xanlar Vəliyev bildirib ki, dövlətimizin başçısı İlham Əliyevin siyasi iradəsinin, sarsılmaz qətiyyətinin və yorulmaz fəaliyyətinin xalqın mübarizliyi ilə sıx vəhdəti nəticəsində ölkəmizdə ümumi daxili məhsul, bütövlükdə sənaye, o cümlədən mədən sənayesi və qeyri-neft sektorunda sənaye istehsalı, kənd təsərrüfatı məhsulları və sair istehsalı əhəmiyyətli dərəcədə artıb. Eyni zamanda, əhalinin pul gəlirləri, əməkhaqları, pensiyaları da dəfələrlə artıb, ölkə iqtisadiyyatına, o cümlədən qeyri-neft sektoruna yüz milyardlarla manat həcmində sərmayələr qoyulub və dövlətin valyutası olan manatın məzənnəsinin sabitliyi təmin olunub.

Xanlar Vəliyev xüsusi vurğulayıb ki, ölkəmizin hərtərəfli inkişafında və qazanılan ardıcıl uğurlarda xalqına və dövlətinə sədaqəti, milli-mənəvi dəyərlərə sadiqliyi və digər məziyyətləri ilə bütün dünya qadınlarına örnək olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da hərtərəfli fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

Dövlətimizin hərtərəfli inkişafının Silahlı Qüvvələrin qüdrətlənməsinə də müsbət təsir etdiyini bildirən Xanlar Vəliyev qeyd edib ki, son illər Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, hərbçilərin sosial vəziyyəti daha da yaxşılaşdırılıb. Bunun nəticəsində vahid mərkəzdən idarə olunan, maddi-texniki bazası, intellektual potensialı möhkəmləndirilən, mənəvi-psixoloji hazırlıqlı, yüksək əhval-ruhiyyəli, bir sözlə, müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşıb. Təsadüfi deyil ki, "Global Firepower" təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı yeni hesabatda Gürcüstan ordusu 85-ci, Ermənistan ordusu 96-cı sırada qərarlaşdığı halda, Azərbaycan Ordusu 52-ci yeri tutub.

Hərbi prokuror bildirib ki, Prezident İlham Əliyevin müdrik siyasəti və gərgin əməyi sayəsində ölkə iqtisadiyyatının durmadan inkişaf etməsi Hərbi Prokurorluğun maddi təminatının, eləcə də işçilərin sosial müdafiəsinin daha da gücləndirilməsinə zəmin yaradıb, müasir standartlara uyğun və zəruri avadanlıqlarla təchiz olunmuş binalar tikilib istifadəyə verilib, əməkdaşlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Bütün bunlar hərbi prokurorluq işçilərinin xidməti vəzifələrinə vicdanla və daha məsuliyyətlə yanaşmalarına rəvac verib. Hərbi prokurorluq orqanlarının fəaliyyəti Silahlı Qüvvələrdə hərbi intizamın möhkəmləndirilməsinə, cinayətkarlığın və digər qanun pozuntularının qarşısının alınması və aradan qaldırılmasına, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına, o cümlədən hərbi idarəçilik strukturlarında hərbi qulluqçuların və mülki vətəndaşların hüquq və qanuni mənafelərinə zərər vuracaq əməllərin qarşısının alınmasına, işin səmərəliliyinin artırılmasına, eyni zamanda, ordu quruculuğuna mənfi təsir edə biləcək nöqsanların və qanun pozuntularının aradan qaldırılmasına yönəldilib. Beləliklə, cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi istiqamətində görülən işlər səmərəli olub, nəticə etibarilə Silahlı Qüvvələrdə törədilən cinayətlərin və digər qanun pozuntularının ildən-ilə azalması tendensiyası davam edib.

Tədbirə yekun vuran Xanlar Vəliyev prokurorluq orqanlarından yüksək diqqət və qayğısını əsirgəməyən Prezident İlham Əliyevə dərin ehtiramını ifadə edərək, dövlətimizin başçısını əmin edib ki, Azərbaycan Respublikasının Hərbi Prokurorluğu bundan sonra da Silahlı Qüvvələrdə nizam-intizamın və qanunçuluğun daha da möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətini daim gücləndirəcək, cinayətkarlığa və digər qanun pozuntularına, eləcə də dövlətimizin qüdrətlənməsinə xələl gətirə biləcək hallara qarşı mübarizədə barışmaz mövqe tutaraq üzərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcək.

# "Əli Kərimlinin dələduzluğu və diktatorluğu artıq ətrafı tərəfindən təsdiqlənir"



"AXCP sədri Əli Kərimlinin mənəviyyatsız üsullarla mübarizə aparması heç kimə sirr deyil. "Demokrat" donuna bürünərək min bir oyundan çıxan Əli Kərimlinin çirkin əməlləri ilə bağlı kifayət qədər həqiqətlər də üzə çıxıb. Zaman-zaman AXCP-dən istefa verən cəbhəçilər də öz "liderləri"nin çirkin xislətindən, xəyanətkar əməllərindən və antimilli fəaliyyətindən dəfələrlə söz açıblar". Bu sözləri SİA-ya açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə bildirib ki, Azərbaycan Xalq Cəbhəsi Partiyası sədrinin müavini Razi Nurullayev postundan istefa verərkən bildirmişdi ki, AXCP-də diktatura hökm sürür, partiyanın sədri Əli Kərimli isə avtoritar düşüncəyə malikdir: "AXCP-dən istefa verən şəxslərin hamısı Əli Kərimlinin partiya daxilində avtoritarizm yaratması, azad sözü boğması, tənqidə və fərqli fikrə dözümsüz yanaşması barədə danışırlar. Sıravi cəbhəçilər belə bildirirlər ki, bu partiyada hər kəs yalnız Əli Kərimliyə xidmət edir."

"Bu günlərdə AXCP Nəzarət-Təftiş Komissiyasının sədri Aydın Əliyev də öz cəbhədaşlarına video-müraciətində Əli Kərimlinin bütün çirkli oyunlarını, xəyanətkar əməllərini, maliyyə fırıldaqlarını ifşa edib" deyən Vüqar Rəhimzadə əlavə edib ki, Aydın Əliyev bu müraciətində Əli Kərimlini siyasi dələduz adlandırır: "Aydın Əliyev Əli Kərimlinin xislətinə çox yaxşı bələd olduğundan müraciətində bildirir ki, bundan sonra AXCP-də ona qarşı böhtan və şər kampaniyası başladacaqlar. Ancaq o, həmin şəxsləri əvvəlcədən xəbərdar edir ki, Əli Kərimlinin göstərişlərinə uymasınlar və onun barəsində danışarkən haqq və ədalət hissini unutmasınlar. Çünki bir gün gələcək o tapşırıqları yerinə yetirənlər də Əli Kərimlinin çirkin oyunlarının qurbanı olduqlarını başa düşəcəklər".

Vüqar Rəhimzadə diqqətə çatdırıb ki, bu cür hadisələrin baş verməsi AXCP daxilində böyük ixtilafların baş verdiyini və Əli Kərimlinin artıq prosesləri idarə edə bilmədiyini göstərir. İfşa faktlarının ardıcıl olaraq üzə çıxması, xüsusilə də Əli Kərimlinin dələduzluğunun və diktatorluğunun artıq ətrafı tərəfindən təsdiqlənməsi AXCP trolbaşının istefasının labüdləşdiyini isbatlayır.

# Hikmət Babaoğlu: "Qarabağ qazilərinin ən böyük hamisi elə dövlətdir"



"Azərbaycan dövləti daima Qarabağ qazilərini diqqət mərkəzində saxlayır, onların qayğısına qalır, veteranlarımızın, qazilərimizin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində davamlı şəkildə siyasət həyata keçirir". Bunu Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Onun sözlərinə görə, cəmiyyətdə insanlar müxtəlif statusa malikdirlər: "Hər sosial təbəqənin, status daşıyıcısının dövlət qarşısında öz vətəndaşlıq vəzifələri var. Dövlət-vətəndaş münasibətlərində ən mühüm məsələ ondan ibarətdir ki, dövlət vətəndaşları qarşısında öz öhdəliklərini yerinə yetirdiyi, onları müdafiə etdiyi, qayğısına qaldığı kimi vətəndaş da öz vəzifələrini yerinə yetirsin. Bu isə sadəcə, bir düsturdan ibarətdir ki, vətəndaş dövlətin qoyduğu qanunları pozmasın. Əks təqdirdə, cəmiyyətdə bir nizamsızlıq yaranar. Mən düşünürəm ki, vəziyyətin bu cür olmasını hər şeydən öncə Qarabağ qaziləri istəməzlər. Çünki onlar Vətənin, torpağın nə olduğunu digər vətəndaşlardan daha çox dərk edirlər. Azərbaycanın ərazi bütövlüyü üçün, Vətən torpaqlarının qorunması üçün sağlamlıqlarının bir qismini qurban veriblər, özlərini fəda ediblər".

Hikmət Babaoğlu xatırladıb ki, Azərbaycanın brendi hesab olunan SOCAR həm də ölkəmizin ən böyük şirkətidir. Enerji sektorunda Azərbaycanın enerji siyasətini həyata keçirən mühüm bir şirkətdir. Əlbəttə ki, SOCAR-ın ərazilərində qeyri-qanuni tikintinin aparılması nəticə etibarilə, bu şirkətin fəaliyyətinə əngəllər törədə bilər. Yaxud o şirkətin fəaliyyətinin effektivliyini aşağı sala bilər. Nəzərə almaq lazımdır ki, məhz SOCAR-ın əldə etdiyi gəlirlər Azərbaycanın sosial sahədə həyata keçirdiyi siyasətin ciddi maliyyə əsaslarını təşkil edir. Heç şübhəsiz ki, gəlirlərin böyük bir qismi də Qarabağ veteranlarının, qazilərimizin, şəhid ailələrini sosial müdafiəsinə xərclənir. Bu şirkətə qarşı münasibətdə hər bir vətəndaşın qanun çərçivəsində hərəkət etməsi vacibdir.

"Bəzi qruplaşmalar vardır ki, ayrı-ayrı vaxtlarda xüsusi statusu olan müəyyən təbəqəni dövlətə qarşı yönləndirməyə cəhd edir. Biz dəfələrlə şahidi olmuşuq ki, Qarabağ veteranlarından istifadə edərək təxribatlara əl atmaq cəhdləri olub. Dövlət tərəfindən bunun qarşısı alınıb. Mən düşünürəm ki, SOCAR kimi milli şirkətimizə qarşı aparılan belə kampaniya nə Azərbaycanın, nə də Qarabağ qazilərinin lehinədir. Qarabağ qaziləri heç bir şəkildə dövlətə qarşı zorakılıq alətinə çevrilə bilməz. Çünki onların ən böyük hamisi elə dövlətdir. Sadəcə, bu məsələdə qazanan tərəf Azərbaycanı sevməyən qüvvələr ola bilər ki, qazilərimiz də, biz də buna fürsət verməməliyik, - deyə Hikmət Babaoğlu bildirib

# "Hazırda Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin icraatında 127 cinayət işi istintaq olunur"

Azərbaycan Prezidentinin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə daim nəzarətdə olub. Bu ilin doqquz ayı ərzində prokurorluq orqanları tərəfindən 397 vəzifəli şəxs haqqında korrupsiya cinayətləri törətdiklərinə görə 250 cinayət işi məhkəmə məsuliyyətinə verilib.

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə müsahibəsində Baş prokuror Zakir Qaralov deyib. Baş prokuror qeyd edib ki, bu prosesdə dövlətə dəymiş 18 milyon manata yaxın ziyan ödənilib. Hazırda Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin icraatında 127 cinayət işi istintaq olunur.

# Xocavəndin işğalından 27 il ötür



**_Xocavənd rayonu 1992-ci il oktyabrın 2-də Ermənistan silahlı birləşmələri və onların havadarları tərəfindən işğal edilib. Bu tarixdən 27 il ötür. İşğal nəticəsində, rayonun azərbaycanlılar yaşayan 10 kəndində 1723 yaşayış evi ermənilər tərəfindən yandırılaraq əmlakları talan edilib, 47 sənaye, 144 kənd təsərrüfatı obyekti dağıdılaraq viran qalıb. Erməni vandalları tərəfindən 17 təhsil müəssisəsi, 4 məktəbəqədər tərbiyə ocağı, 32 səhiyyə məssisəsi, 59 mədəniyyət obyekti və 10 tarixi abidə dağıdılıb. Rayonun infrastrukturuna aid olan 12 rabitə qovşağı, 341 km avtomobil yolları, 32 körpü, 42 su anbarı və 316 km su kəməri xətti dağıdılıb, talan edilərək, yararsız hala salınıb._**

İşğal nəticəsində, vurulmuş maddi-mənəvi ziyanla bərabər, rayonun bitki və meşə örtüyünə də böyük miqdarda zərər dəyib. Belə ki, rayonun 1202 ha meşə sahəsindəki qiymətli ağac növləri qırılaraq, məhv edilib.

Xocavəndlilər 13 nəfəri qadın, 13 nəfəri uşaq olmaqla, 145 nəfər şəhid verib, rayon sakinlərindən 300 nəfərdən çox insan sağlamlığını itirib və ya əlil olub, 243 uşaq valideynlərindən birini, 68 qadın həyat yoldaşını itirib. Müxtəlif dövrlərdə girov götürülmüş 110 nəfər dinc sakindən 49 nəfəri əsir və girovluqda olarkən, erməni terroru və vəhşiliyinin qurbanı olub, bir ailədən olan 3 uşaq hər iki valideynini itirib.

Ərazisi alçaq dağlıq və şərqdə maili düzənlikdən ibarət olan Xocavənd rayonunun ümumi sahəsi 145647 hektardır. Əsasən, Yura, Təbaşir, Antropogen çöküntülərindən ibarətdir. Mərmər yatağı var. İqlimi çox yerdə yayı quraq keçən mülayim istidir. Qədim yaşayış məskənlərindən sayılan Xocavəndin ərazisi təbii sərvətlərlə - tikinti materialları və faydalı qazıntılarla, meşə zolaqları və şirin su ehtiyatları ilə zəngindir. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, Xocavənd rayonunun Qırmızıbazar qəsəbəsində diametri 600 sm, hündürlüyü 25 metr olan 1 ədəd 1000 və 1 ədəd 2000 il yaşlı Şərq çinarları qədim təbiət abidəsi kimi qorunurdu. Rayonun Qarakənd kəndində "Qırmızı kitab"a düşən, üçüncü dövrün relikt növü olan, orta diametri 24 sm, hündürlüyü 12 metr, yaşı 100 illik azat ağacları da mühafizə edilirdi. Rayonun Tuğ kəndinin 5 km-də V əsrə aid "Alban" kilsəsi, Tuğ kəndi ərazisində XII-XVII əsrlərə aid "Alban" kilsələri, I-V əsrlərə aid "Alban" qəbiristanlıqları, Salaketin kəndi ərazisində yerləşən "Dəmrov" ocağı, "Dağdağan" ocağı, Xocavənd kəndi ərazisində yerləşən "Cicim" ocağı, Qaradağlı kəndi ərazisində Qədim "Alban" qəbirstanlığı, Bəhrəmli kəndi ərazisində yerləşən "Bəhmənli" piri, Muğanlı kəndində yerləşən "Seyid Rza" gümbəzi, Qaradağlı kəndi ərazisində "Yel" piri erməni işğalçıları tərəfindən vəhşicəsinə dağıdılmışdır. Azərbaycanı qədim yaşayış məskəni kimi dünyada tanıdan abidələrdən biri, dəniz səviyyəsindən 900 metr hündürlükdə yerləşən, uzunluğu 190 metr, ahəng daşları Oksfordkimeric dövrünə aid olan Azıx mağarası Xocavəndin Füzuli rayonuna yaxın, Azıx kəndinin 1 kilometr cənubi-şərqində yerləşir. İşğal altında olan Xocavəndin ərazisi, bütövlükdə, ekoloji terrora məruz qalıb. Azıx mağarasını ermənilər silah anbarına çeviriblər. Rayonun ərazisində yerləşən və ümumi sahəsi 25,5 min hektar olan meşədəki palıd ağacları qırılaraq daşınıb, Xonaşen çayının kənarlarında bitən təbii meşə isə tamamilə məhv edilib. Xocavəndin Yelli Gədik sahəsində Füzuliyə gedən yolun sağ və sol tərəflərində avtomobil yollarının mühafizəsi məqsədilə əkilən ağaclar da kəsilib.

Xocavənd rayonu, əsasən, kənd təsərrüfatı rayonudur. Üzümü və yaşıl mərməri ilə məşhur olan rayonda əsas təsərrüfat sahələri heyvandarlıq, üzümçülük, quşçuluq, taxılçılıq, bostançılıq və tərəvəzçilikdir. Rayon ərazisində Bağırxan, Qırmızı Bazar, Mədə Bulağı, Baba Bulağı, Ballı Bulaq və s. onlarla istirahət zonaları var.Yurd-yuvasından didərgin düşən xocavəndlilər, əsasən, Beyləqan rayonunda məskunlaşıblar. Burada dövlət qayğısı ilə Xocavənddən olan məcburi köçkünlər üçün 500 ailəlik müasir qəsəbə salınıb. Bu qəsəbədə rayonun icra hakimiyyəti, 360 yerlik məktəb, 50 yerlik uşaq bağçası, xəstəxana və mədəniyyət evi fəaliyyət göstərir.

Bu gün xocavəndlilər isti ocaqlarından, yaşadıqları el-obadan uzaqda yaşayırlar. Zaman yetişəcək ki, xocəvəndlilər də həsrətində yaşadıqları məkana dönəcəklər. Müasir dövrümüzdə dünya standarlarına cavab verən Azərbaycanın Milli Ordusu regionun ən güclü ordusu səviyyəsinə yüksəlib. Torpaqlarının 20 faizi işğalda olan Azərbaycanda ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu siyasətinə sadiq qalaraq, ordunun gücləndirilməsi istiqamətində lazımi tədbirləri həyata keçirir. Ən yeni silah və sursatla, peşəkar zabit kadrları ilə tam təmin olunmuş Azərbaycan Ordusu müharibəyə də, mübarizəyə də hazır, güclü və cəsarətlidir. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan Ordusu işğal olunmuş torpaqlarımızı azad etməyə hazır və qadirdir. Dövlət başçısının "Bu gün Azərbaycan Ordusunda olan texnika ən güclü ordulardan da geri qalmır" fikrini ifadə etməsi, ordumuzun gücünün göstəricisidir. Son dövr olayları Azərbaycan Ordusunun işğalçı Ermənistana nəyə qadir olduğunu, gücünü, ordu potensialını bir daha nümayiş etdirməsi, ölkənin hərbi qüdrətini yenidən göstərmiş oldu. Azərbaycan Ordusunun 26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordusunun əks-həmlə əməliyyatları ilə işğaldan azad etməsi, ordumuzun növbəti uğuru oldu. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun hərbi birləşmələrinin döyüşçüləri çox böyük qəhrəmanlıqla, üç gün davam edən əməliyyatlar nəticəsində, 11 min hektar ərazini ermənilərdən azad etdi. 2016-cı ilin aprel savaşında 2 min hektar ərazi işğaldan azad edilmişdisə, daha sonra əsgərlərimiz 11 min hektar ərazini işğaldan azad etdi. Strateji əhəmiyyət kəsb edən yüksəkliklər silsiləsinin geri qaytarılması Azərbaycan üçün çox böyük önəm daşıyır.

Əminliklə vurğulamaq olar ki, tezliklə işğal altında olan torpaqlarımız erməni təcavüzkarlarının işğalından azad olunacaq. İşğal altındakı digər torpaqlarımız da Cocuq Mərcanlı kimi öz sakinlərinə qaytarılacaq. Təkcə qaçqın və məcburi köçkünlər deyil, bütün Azərbaycan xalqı ölkə başçısının səyi və ordumuzun qüdrəti sayəsində işğalda olan torpaqlarımızın azad ediləcəyinə inanır. İnsanlar doğma yurdlarına qayıdacaqlarının sevincini yaşayacaqlar.

Bu gün xocavəndlilər də öz doğma yurdlarına, ev-eşiklərinə qayıdacaqları günə inanır və həmin günü səbirsizliklə gözləyirlər.

**_Zümrüd BAYRAMOVA_**

# Mübariz Əhmədoğlu: "Ermənistan KTMT-nin müasir tələblərini yerinə yetirməkdə acizdir"



Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu Ermənistan KTMT-nin müasir tələblərini yerinə yetirməkdə aciz olduğunu bildirib: "KTMT Nizamnaməsinə edilən dəyişikliklər Ermənistanın bu qurumdan çıxmasına səbəb ola bilər. Ermənistanın, zamanın KTMT qarşısında qoyduğu tehdidləri nəzərə almaması, fərdi yanaşması isə KTMT-nin Nizamnaməsinin preambulasının I və VI bəndlərinin, eləcə də, VIII və IX maddələr daxil olmaqla, bir neçə maddəsinin pozulmasına gətirib çıxaracaqdır. Nəticədə, Nizamnamənin XX maddəsi işə düşəcək: Əvvəlcə Ermənistanın fəaliyyəti dayandırılacaq. Ermənistanın Nizamnaməyə əməl etməməsi davam edərsə, KTMT-dən xaric ediləcək. Nizamnaməyə görə, bu səsvermələrdə Ermənistan iştirak edə bilməz".

M.Əhmədoğlu, onu da vurğulayıb ki, Ermənistan bu reallığı anlamır və tam əmindir ki, qərarlar konsensusla qəbul olunur və Azərbaycanın bu qurumda müşahidəçi olmasına icazə verməyəcək: "Ermənistanın anti-Azərbaycan fəaliyyəti, birmənalı şəkildə, KTMT-nin səmərəliyinin azalmasına yönələn kimi Ermənistan KTMT-dən uzaqlaşdırılacaqdır. Buna isə, kifayət qədər digər əsaslar da var. Ermənistan KTMT-yə, demək olar ki, heç bir töhfə verməyib. Üzv olduğu qurum KTMT olduğu halda, Ermənistan NATO missiyası ilə keçirilən sülhməramlı əməliyyatlarda iştirak edib. Müqayisə etsək, KTMT-yə ayrılan resurs heç 10 faiz təşkil etmir".

"Ermənistan və Ermənistanın mənsub olduğu coğrafiyada da KTMT-yə təhdid kimi qəbul edilən məsələlər var" fikrini bildirən M.Əhmədoğlu qeyd edib ki, yeganə üzv dövlət Ermənistandır ki, onun ərazisinə Suriyadan qaçqın adı altında terrorçu dəstələr daxil olub: "I. KTMT rəhbərliyi, o cümlədən, RF rəsmiləri bir neçə dəfə bəyan etdilər ki, Yaxın Şərq regionundan terrorçular qaçqın adı ilə KTMT ərazisinə daxil olublar. Yeganə üzv dövlət Ermənistandır ki, onun ərazisinə Suriyadan qaçqınlar daxil olub. Onların bir qismi Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilib.

II. İslam radikalizminin Ermənistana daxil olma ehtimalı böyükdür, bunun artıq əlamətləri görünür və Ermənistan rəhbərliyi özü bu mövzuda danışır.

III. Radikal islamçılığı qəbul etmiş, milliyyətcə erməni olan şəxs Rusiyanın Ermənistandakı hərbçilərindən birini öldürdü.

IV. Erməni mətbuatının yazdığına görə, İran-Ermənistan sərhədinin Arazqırağı hissəsi, Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistanın 2 vətəndaşı İrandan Dağlıq Qarabağa narkotika keçirmək istəyərkən yaxalanıb.

Göründüyü kimi, Ermənistan KTMT-nin müasir tələblərini yerinə yetirməkdə acizdir".

M.Əhmədoğlu Ermənistanın terrorçular üçün kifayət qədər cəlbedici dövlət olduğunu da deyib: "Çünki Ermənistanda İD-kart, xarici pasport açıq satışdadır və bunu da terrorçular bilirlər. Terrorçular Ermənistan ərazisinə gələrək, dünyanın digər dövlətlərinə, o cümlədən, Rusiyanın ərazisinə girmək üçün sənəd əldə edə bilərlər".

**_R.HÜSEYNOVA_**

# YAP Ağstafa rayon təşkilatı tənha ahılları ziyarət edib



Yeni Azərbaycan Partiyası hər il olduğu kimi bu il də 1 Oktyabr Beynəlxalq Ahıllar Günü ilə bağlı daha bir sosial yardım aksiyası həyata keçirir. YAP Ağstafa rayon təşkilatı rayon ərazisində yaşayan tənha ahılları ziyarət edərək, onlara yardım sovqatı paylayıb.

Görüş zamanı bildirilib ki, YAP rayon təşkilatı daim müxtəlif layihələr həyata keçirərək, qayğıya ehtiyacı olan insanlarla görüşlər keçirir. Və bu gün realləşdirilən ahıl insanlara, aztəminatlı ailələrə sosial yardım aksiyası da dövlətimizin və partiyamızın sosial siyasətini özündə ifadə edir.



Həmçinin, bildirilib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin əsas qayəsi dövlətimizin iqtisadi imkanlarından hər bir vətəndaşın həyatının yaxşı təşkil olunmasıdır. Belə tədbirlər dövlətimizin, Prezident İlham Əliyevin siyasətinə, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ölkəmizdə həyata keçirdiyi layihələrə dəstək xarakteri daşıyır.

**_R.HÜSEYNOVA_**

# AXCP yenə çalxalanır...

## Aydın Əliyev: “Əli Kərimli siyasi dələduzdur, bizi illərdir aldadır”

***AXCP Nəzarət-Təftiş Komissiyasının sədri Aydın Əliyev partiyanın ötən qurultaydan qabaq da, bu gün də Əli Kərimlinin çirkin oyunlar apardığını, bu gün isə bu çirkin və iyrənc əməllərə göz yummayacaqlarını bildirib: “Biz, Əli Kərimlinin çirkin oyunlarına qarşı mübarizə aparacağıq. Ona görə də, partiyada istefaların artacağı şübhəsizdir. Artıq Ə.Kərimlinin iyrənc əməllərinə göz yummaq xəstəlikdir. Ona görə də, Ə.Kərimli kimi mafioz Cəmil Həsənli kimi psixoloji durumu bərbad vəziyyətdə olanlarla bir yerdə qalacaq.”***

### “Partiyadaxili maliyyə, xaricdən gələn qrantlar Əli Kərimlinin özünün, ailəsinin və xaricdə yaşayan oğlunun yaşamasına sərf edilib”

A.Əliyev AXCP üzvlərinə Ə.Kərimlinin siyasi dələduzluqla məşğul olduğunu faktlarla anlatmağa çalışıb: “Mən bu gün çox təəssüf hissi ilə sizlərə müraciət edirəm. Demokratiya, haqq-ədalət uğrunda mübarizəni həyatımın mənası hesab etmişəm. AXCP-nin ən fəal üzvlərindən biri olaraq, partiyada müxtəlif rəhbər vəzifələrdə olmuşam. 2015-ci ildə partiyanın qurultayında AXCP Nəzarət-Təftiş Komissiyasının üzvü, sonra isə sədri seçilmişəm. Sonradan bilmişəm ki, mənim kimi obyektiv, düz danışan, prinsipial bir adamın bu vəzifəyə seçilməsi Ə.Kərimlinin ürəyincə olmayıb. Partiyadaxili maliyyə, xaricdən gələn qrant və s. pul məsələlərini ancaq öz nəzarətində saxlayan və özünün, ailəsinin, xaricdə yaşayan oğlunun, ərəb şeyxlərinin övladı kimi yaşamasına sərf edən Ə.Kərimlini mənim kimi düzgün və əqidəli adam qane etməyib. 30 illik siyasi fəaliyyətdən sonra başa düşmüşəm ki, mən və mənim kimi yüzlərlə cəbhəçi Əli Kərimli tərəfindən aldadılmışıq. O, bizim hər birimizdən öz şəxsi mənafeyi üçün istifadə edib. Sözdə demokratiya uğrunda mübarizə apardığını desə də, əslində, partiyada çox sərt diktatura rejimi qurub. Fərqli düşünənləri, onun anti-demokratik hərəkətlərinə etiraz edənləri ən çirkin üsullarla ləkələyib, böhtanlara məruz qoyub və partiyadan uzaqlaşdırıb”.

A.Əliyev onu da bildirib ki, Ə.Kərimli bir siyasi dələduz olaraq, bizi və xalqımızı illərdir ki, aldadır: “O, bu gün də gənclərimizi aldadaraq, özünün çirkin oyunlarına qurban vermək istəyir. Ə.Kərimli və onun əlaltıları məni də öz çirkin oyunlarının qurbanına çevirib, ləkələyib partiyadan, siyasi mübarizədən uzaqlaşdırmağa və istefa verməyə məcbur etmək istəyirlər. Ə.Kərimlinin partiyamızda yaratdığı diktatura rejiminə qarşı, onun çirkin oyunlarına qarşı mübarizə aparacağıq və bütün xəyanətkar əməllərini ifşa edəcəyik”.

### “Əli Kərimli, əgər cəsarətin çatırsa istefa ver!”

NTK sədri müraciətində onu da bəyan edib ki, yüzlərlə cəbhəçi Ə.Kərimli tərəfindən aldadılıb və onun illər ərzində apardığı çirkin və xəyanətkar oyunlara son qoymağa çağırıb: “Yetər. Partiyada yaratdığın diktaturaya son qoy. Əgər cəsarətin və mənliyin çatırsa, istefa ver. Qoy partiyanın üzvləri özlərinə gənc, savadlı, xalqını sevən və bacarıqlı rəhbər seçsinlər. Partiyamızı çirkin oyunlara təhrik etməkdən və Azərbaycanı fəlakətə aparan əməllərindən əl çək”.

Partiya üzvlərinə müraciət edən A.Əliyev ona qarşı böhtan kampaniyasına başlanacağının anonsunu verib: “Bilirəm ki, bu müraciətimdən sonra Ə.Kərimlinin göstərişi ilə onun əlaltıları mənə qarşı böhtan və şər kampaniyasına başlayacaqlar. Ancaq bütün bunlara əhəmiyyət verməyərək, qabaqcadan həmin şəxslərə səslənirəm ki, mənim barəmdə danışarkən, haqq və ədalət hissini unutmasınlar. Bir gün onlar da Əli Kərimlinin çirkin oyunlarının qurbanı olduqlarını başa düşəcəklər”.

### Rəfail Becanov: “Əli Kərimli yalnız AXCP adı ilə manipulyasiya edir”

AXCP adına iddialı olan digər qanadın funksioneri Rəfail Becanov bildirir ki, bəyanatı verən şəxs ömrünü mübarizəyə həsr etmiş adamdır: “Partiyanın ən məsuliyyətli bir postunu tutur. NTK yalnız qurultayda formalaşdırılır. Yəni sözügedən şəxs bütün qurum



tərəfdarlarının səsini almış adamdır. Onun səsləndirdiyi ittihamlar indiyə kimi də deyilib. Yalnız opponentlər tərəfindən deyil, partiyanın içindən də səslənib. Ancaq həmin adamların son aqibəti bəllidir. Səsini çıxaranı təşkilatdan uzaqlaşdırıblar. Bu adam, həqiqətən, avtoritar idarəetməyə meyillidir, onun xisləti budur. Kimisə dinləməyi xoşlamır, yalnız əmr vermək istəyir. Bu çıxış, bir daha göstərdi ki, oradakı vəziyyət, doğrudan da, acınacaqlıdır. O da illərlə gördüyü problemləri, axır ki, dilə gətirmək məcburiyyətində qaldı”.

AXCP NTK-nin keçmiş sədri A.Əliyevin dediyi kimi, Ə.Kərimlinin yürütdüyü “siyasətin” hər bir addımında xəyanətin, satqınçılığın və dövlətçilik maraqlarını satmağın izləri dayanır və artıq kifayət qədər sübutlar mövcuddur. Təəssüf ki, onu ifşa edən minlərlə faktların olmasına baxmayaraq, o, nadir həyasızlıq nümunələrini ortalığa atmaqla, iqtidara iddialı olan “ana müxalifət” partiyasının sədri kimi bu və ya digər şəkillərdə özünü xalqa zorla (!) sırımaqda davam edir. Mitinq və aksiyalarında pafoslu çıxışları, qaragüruhçuluğu və haray-şivənçiliyi ilə ətrafına, uzağı, 7-8 yüz nəfər yığmağı bacaran Ə.Kərimli hələ də həmin gülünc iddialarında qalmaqda davam edir, hələ də sanır ki, bu minvalla - xəyanət və satqınçılıq yolunu tutmaqla hakimiyyətə yiyələnə biləcək. Lakin təəssüf ki, bu gün Ə.Kərimlinin ətrafına toplaşanlar, artıq onun çirkin oyunlarını qəbul etmir. Onun yalan və şirin vədləri ilə toplaşmış bir qrup gənc nəslin nümayəndələri də dərin qış yuxusuna gedərək, “liderləri” barədə müfəssəl məlumatlara malik olmadıqlarını nümayiş etdirirlər. Məgər xalq, eyni zamanda, ay A.Əliyev və digər funksionerlər, bunu 2003-də, 2005-də və sonrakı illərdə görə-görə, niyə yenə də bu quldur və satqının ətrafında qaldınız?

Beləliklə, A.Əliyev sizi də, digərlərini və AXCP sədrini məhkəmələrdə ifşa edən faktlar, qeyd elədiyimiz kimi, kifayət qədərdir. Məhz bu gün Ə.Kərimlinin fırıldağına qurban gedən həmin gənclər anlamalıdırlar və bilməlidirlər ki, AXC-nin mərhum lideri Əbülfəz Elçibəy onu elə-belə “komsomolçu” adlandırmayıb. Çünki hələ AXC yarandığı dövrlərdən, yəni Xalq Azadlıq Hərəkatından başlayaraq, Ə.Kərimli SSRİ DTK-sına canfəşanlıqla işləyib. Daha sonra isə DTK-nın xələfi olan Rusiyanın məxfi orqanları ilə əməkdaşlıq edib. Əldə etdiyimiz faktlar da, bunu deməyə əsas verir. Yəni fakt budur ki, Ə.Kərimli AXCP-ni sovet kəşfiyyatının planı ilə dağıdıb-parçalayıb.

### Əli Kərimlinin hər zaman milli məfkurə və bütöv AXCP fobiyası olub

Bu arada, xatırlatmaq yerinə düşərdi ki, “Yurd”un AXCP-ni bitirmək üçün keçmiş sovet kəşfiyyatının hazırladığı plan olması da buradan görünür. Məsələn, ən maraqlı tərəfi də, Elçibəy vəfat etdikdən sonra AXCP-nin sədr postunu qəsb edən Ə.Kərimli, ötən illər ərzində, bir dəfə də olsun ortaya siyasi iddia qoymayıb və heç vaxt “Yurd”un AXCP-dən ayrılmaq istəməməsi də bundan qaynaqlanırdı. “Yurd”, AXCP sədri Əbülfəz Elçibəyin ölümü ilə cəbhəçilərə qarşı iti dişlərini göstərdi. Pul, hakimiyyət və xarici dövlətlərdəki qəyyumlarından aldığı əlahiddə imtiyazların verdiyi sərxoşluq “Yurd” sədri Ə.Kərimlinin gözlərini tamamilə kor etdi. Həmçinin, AXCP-ni parçalamaq müqabilində əldə etdiyi maddi gəlirlər onun fiziki və siyasi tərəfdən saxtakarlıqlarını üzə çıxardı. Çünki partiyanı parçalamaq planını başqalarının geyindirdiyi bir neçə maskayla həyata keçirirdi. “Yurd” bu işdə Kərimlinin əsas dağıdıcı qüvvəsiydi. AXCP-də Elçibəy tərəfdarlarına qarşı güclənən separatçılıq və cəbhəçiləri partiyadan kənarlaşdırmaq planlarının başını da “Yurd” sığallayırdı. 1993-cü ildən bu yana, ölkədə keçirilən bütün seçkilərdə müxalifətin məğlubiyyətə uğraması, siyasi partiyaların yaratdığı blokların (“DUH”, “SİDSUH”, “DUBB”, “Bizim Azərbaycan”, “Azadlıq”, “MKM”, “İctimai Palata”, “Milli Şura” və s.) fikir ayrılıqlarına görə dağılması işlərində, zaman-zaman mediada Elçibəyə qarşı aparılan təhqir kampaniyasında “Yurd” həmişə ön planda olub. Ə.Kərimlinin liderliyindəki bu separatçı qurum Milli Azadlıq Hərəkatının bütün dövlətçilik ideologiyasını darmadağın etdi. Şiddət və təhqir həmişə “Yurd”un AXCP-yə qarşı mübarizəsində bir nömrəli şüarı olub. O da, əbəs deyil ki, onu tanıyan bir çoxları etiraf edirlər ki, Ə.Kərimlinin milli məfkurə və bütöv AXCP fobiyası olub. Məhz buna görə, çox asanlıqla kənar güclərin separatçı zehniyyətini beyin qəlibinə yerləşdirə bilir. Sonu sürətləndirən proses Ə.Kərimlinin kənar güclərin böyük diametrli dəstəyi sayəsində Elçibəy və tərəfdarlarını AXCP-dən kənarlaşdırmaq cəhdləri dövlətçiliyə xəyanət idi. Beləliklə, essentrik diktatorun şəxsi mənfəətləri üçün güclü bildiyi rəqiblərini zərərsizləşdirmək yolunda alternativ variantı yox idi. Çünki bütöv cəmiyyət daxilində Ə.Kərimlinin nüfuzlu olduğu çərçivə “Yurd”la məhdudlaşırdı. “Yurd”la təkbaşına Elçibəy tərəfdarlarının öhdəsindən gəlmək isə, mümkün deyildi. Nəticədə, o, Xalq Cəbhəsini siyasətdə passivləşdirmək üçün partiya xaricindəki güclərə öz pullu xidmətlərini təklif etdi. Ə.Kərimli illər ərzində partiya daxilindəki nizamı bu cür formalaşdırmışdı. Onun nümunəsi göstərir ki, hansısa çərçivədə təkbaşına rejim qurmaq və bunun təhlükəsizliyini təmin etmək üçün əlavə maskalara ehtiyac var. “Yurd” sədri heç vaxt AXCP-ni dağıtmağa başlayarkən, “Uçuruma doğru gedirsən!” xəbərdarlıqlarından dərs almadı. Və bu gün AXCP sədri də AXCP adı ilə manipulyasiya edir, lakin bu gündən isə, AXCP daxilində bundan sonra da belə problemləri görəcəyik. Ə.Kərimlinin ifşa olunması isə davamlı proses olacaq.

**Rəfiqə HÜSEYNOVA**

# İranda keçmiş nazirin qızı və nazir müavininin qardaşı həbs edilib



***İranın hüquq-mühafizə orqanlarının həyata keçirdikləri antikorrupsiya tədbirləri davam edir. AZƏRTAC xəbər verir ki, bu tədbirlər çərçivəsində İranın keçmiş Ticarət, Sənaye və Mədənlər naziri Məhəmmədrza Nemətzadənin qızı Şəbnəm Nemətzadə həbs olunub. Tehran məhkəməsi külli miqdarda pul müqabilində onu zaminə buraxmaqdan imtina edib. Yerli mətbuat yazır ki, Ş.Nemətzadə dövlət bankından 4 milyon ABŞ dolları kredit alıb. O, krediti ölkəyə zəruri dərman preparatları idxal etmək üçün götürüb. Dövlət bu kreditə görə çox cüzi faiz hesablayıb. Dərman preparatları ölkəyə daxil olandan sonra isə Ş.Nemətzadəyə məxsus “Rəsapəxş” şirkəti dərmanları satışa çıxarmayıb. Gözləyib ki, qiymətlər artsın.***

Aparılan əməliyyat-axtarış tədbirləri zamanı həmin dərmanlar şirkətin anbarında tapılıb. Məlum olub ki, dərmanlar 2 il əvvəl ölkəyə gətirilsə də, satılması üçün əczaxanalara verilməyib və dərmanların yararlılıq müddəti başa çatıb. Bundan başqa, İranın Xarici İşlər nazirinin müavini Abbas Əraqçının da qardaşı qanunsuz valyuta əməliyyatları və korrupsiyada ittiham olunaraq həbs edilib.

# Zaqatalada Beynəlxalq Ahıllar Günü münasibətilə bayram tədbiri keçirilib

*1 Oktyabr Beynəlxalq Ahıllar Günü münasibətilə Yeni Azərbaycan Partiyası Zaqatala rayon təşkilatı rayonun Heydər Əliyev Mərkəzində geniş bayram tədbiri keçirib. Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüblər. Tədbirdə partiya fəalları, gənclər və ahıllar iştirak ediblər.*





Tədbirdə çıxış edən Zaqatala rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə bu tarixin beynəlxalq səviyyədə qeyd edilməsinin ahıllara diqqət və qayğının artırılması məqsədi daşıdığını bildirib:"Cəmiyyətdə əxlaqi dəyərlərin təbliğində böyüklərə hörmət, qayğı hissinin formalaşdırılması vacib məsələlərdəndir. Bu, cəmiyyəti yaşadan ən əsas prinsiplərdən biridir. Böyüklərə hörmət Azərbaycan xalqının adət-ənənəsidir. Bu ənənə mənəviyyatımızın ayrılmaz tərkib hissəsidir və çox qədim tarixi köklərə söykənir. Vurğulayıb ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyev ahıl insanlara, onların problemlərinə hər zaman böyük diqqət və qayğı ilə yanaşıb. Bu gün Prezident İlham Əliyev tərəfindən ahıllara diqqət və qayğı, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması məqsədilə müvafiq sənədlər imzalanıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətinin mərkəzində sosial məsələlərin həlli və vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi dayanır.

Tədbirdə çıxış edən YAP Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov çıxışında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ahıl insanlara qayğısından danışıb. O bildirib ki, Mehriban xanım Əliyeva da ahılların ən böyük qayğıkeşidir. Azərbaycanın Birinci Xanımının təşəbbüsü ilə ahıllar, müharibə veteranları ilə görüşlər keçirilir, onların sağlamlığı daim diqqətdə saxlanılır. Ahıllar günündə də bu insanlar üçün müxtəlif tədbirlər təşkil olunur".

Tədbir zamanı 25 nəfər ahıla bayram sovqatı paylanılıb. Sovqatların bir hissəsi tədbirdə iştirak edə bilməyən ahılların evlərində təqdim olunub. Ahılları ziyarət zamanı rayon təşkilatının əməkdaşları və gənclər birliyinin fəalları ahıl sakinlərin qayğıları ilə yaxından maraqlanmış, onların gündəlik ehtiyacalarını öyrənmişlər. Zaqatala rayonu ərazisində yaşayan ahıllar da, bu diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

**ZÜMRÜD BAYRAMOVA**

# YAP Tərtər rayon təşkilatı 1 Oktyabr Beynəlxalq Ahıllar Günü ilə bağlı rayon ərazisində sosial aksiya keçirib

*Yeni Azərbaycan Partiyasının Tərtər rayon təşkilatı 1 Oktyabr Beynəlxalq Ahıllar Günü ilə bağlı rayon ərazisində sosial aksiya keçirib.*



Aksiya çərçivəsində YAP Tərtər rayon təşkilatının fəalları rayonda yaşayan ahıl, kimsəsiz və qayğıya ehtiyacı olan insanları ziyarət edib və onlara maddi dəstək göstəriblər.



Aksiyada iştirak edən partiya fəalları bildiriblər ki, sosial dövlət olan Azərbaycanda vətəndaşlara qayğı, onların sosial müdafiəsinin gücləndirilməsi həyata keçirilən dövlət siyasətinin mühüm istiqamətidir.

Xüsusilə, qeyd olunub ki, öz fəaliyyətində hər zaman xalqımızın maraqlarını rəhbər tutan, cəmiyyətdən gələn sosial sifarişlərə uyğun çoxsaylı layihələr reallaşdıran Yeni Azərbaycan Partiyası da Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi siyasətə dəstək verir, bu siyasətin daha uğurlu nəticələr verməsi üçün üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Rayon təşkilatının fəalları qayğıya ehtiyacı olanların ailə üzvlərinə baş çəkib, onlara yardım göstəriblər.

Sözügedən ailələr və rayon ictimaiyyəti YAP-ın bu təşəbbüsünü yüksək qiymətləndirib, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

**R.HÜSEYNOVA**

# YAP Binəqədi rayon ərazi ilk partiya təşkilatında görüş keçirilib

*Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının Binəqədi rayonu, Rəsulzadə qəsəbəsi, Binəqədi şossesi 12 ünvanlı ("Akabe" MMC) ərazi ilk partiya təşkilatında görüş keçirilib.*



Görüşü YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov açaraq, gündəlikdə duran məsələlər barədə məlumat verib. Təşkilat sədri son vaxtlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi altında ölkəmizdə aparılan sosial, iqtisadi və digər sahələri əhatə edən islahatlardan danışıb. Bu uğurların əldə edilməsində və təbliğində Yeni Azərbaycan Partiyasının rolunu qeyd edib.

R.Göyüşov, eyni zamanda, ölkəmizdə əldə edilən uğurları, nailiyyətləri gözü götürməyən anti-Azərbaycan qüvvələrin xəyanətkar fəaliyyətindən danışıb. YAP rayon təşkilatının sədri belə kampaniyalara qarşı hər bir YAP üzvünün fəal olmasının vacibliyini önə çəkib. Hər bir üzvümüz, eləcə də, vətəndaşımız anti-Azərbaycan qüvvələrə qarşı barışmaz olmalı, dövlətimizin maraqlarını daim uca tutmalı və onu qorumalıdır. Dövlətçiliyimizə və ölkəmizin inkişafına kölgə salmaq istəyənlərə qarşı qətiyyətli olmalıdır.

Görüşdə, həmçinin, təşkilati daxili məsələlər müzakirə edilib. Partiya üzvlərinin uçot qaydalarına riayət olunmasına, partiya üzvlərinin üzvlüyə qəbul olunarkən könüllülük prinsipinə ciddi əməl olunmasının vacibliyi vurğulanıb.

Çıxış edən digər natiqlər verilən tövsiyələrə əməl olunacağını qeyd ediblər.

**ZÜMRÜD**

# YAP Cəbrayıl rayon təşkilatı rayonda olan ayhılları yoluxub

*Dünən Yeni Azərbaycan Partiyası Cəbrayıl rayon təşkilatı Beynəlxalq Ahıllar Günü münasibətilə sosial aksiyası həyata keçirib. Aksiyada YAP Cəbrayıl rayon təşkilatının gənc üzvləri rayonun məcburi köçkün, ahıl Şirinova Təbərrük və I qrup əlil, yataq xəstəsi Şirinova Samirəni ziyarət edib, onlara yardım sovqatları veriblər.*



Görüş zamanı bildiriblər ki, bu gün reallaşdırılan ahıl insanlara, aztəminatlı ailələrə sosial yardım aksiyası da dövlətimizin və partiyamazın sosial siyasətini özündə ifadə edir. Prezident İlham Əliyevin bu gün həyata keçirdiyi siyasətin əsas qayəsi də ondan ibarətdir ki, dövlətimizin iqtisadi imkanlarından hər bir vətəndaşın həyatının yaxşı təşkil olunması üçün istifadə edilsin, o cümlədən də, qayğıya ehtiyacı olan bütün insanlar diqqət mərkəzində saxlanılır. Belə tədbirlər dövlətimizin, Prezident İlham Əliyevin siyasətinə, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ölkəmizdə həyata keçirdiyi layihələrə dəstək xarakteri daşıyır.



Qeyd edək ki, ziyarət olunan ahıl və qayğıya ehtiyacı olan insanlar, belə xeyriyyə aksiyalarının təşkilinin ölkəmizdə aztəminatlı ailələrə göstərilən diqqət və qayğının bariz nümunəsi olduğunu söyləyib, onlara göstərilən diqqət və qayğıya görə, ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

**R.KAMALQIZI**

# Türkiyə bu il 5,31 milyard kubmetr Azərbaycan təbii qazı alıb

İyul ayında Türkiyə Azərbaycandan 900 milyon kubmetrədək təbii qaz idxal edib. AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin Enerji Bazarını Tənzimləmə Təşkilatı (EPDK) məlumat yayıb. Bildirilir ki, iyulda Türkiyənin Azərbaycandan idxal etdiyi qazın həcmi iyunla müqayisədə 250 milyon kubmetrədək artıb. Azərbaycan iyulda Türkiyənin ən çox qaz idxal etdiyi ölkələr sırasında Rusiyadan (1,1 milyard kubmetr) sonra ikinci olub.

Bu ilin yanvarında Türkiyə 808,3 milyon kubmetr, fevralda 683,2 milyon kubmetr, martda 772,4 milyon kubmetr, apreldə 724,8 milyon kubmetr, mayda 770 milyon kubmetr, iyunda 650,6 milyon kubmetr, iyulda isə 899,9 milyon kubmetr Azərbaycan qazı alıb. Yeddi ayda qardaş ölkənin Azərbaycandan təbii qaz idxalının həcmi 5 milyard 310 milyon kubmetr təşkil edib. Qeyd edək ki, keçən il Türkiyəyə Azərbaycandan 7 milyard 527 milyon kubmetr təbii qaz ixrac olunub.

# Ahıllar hər zaman hörmət və ehtirama layiqdirlər

***BMT Baş Məclisinin 1992-ci ildə qəbul etdiyi “Ahılların müdafiəsi ilə bağlı Qətnamə”yə əsasən, 1 Oktyabr Beynəlxalq Ahıllar Günü kimi təsis edilmişdir. 1993-cü ildən başlayaraq, ölkəmizdə də Beynəlxalq Ahıllar Günü hər il yüksək səviyyədə qeyd edilir.***





Dünən 1 Oktyabr Beynəlxalq Ahıllar Günü ilə əlaqədar Laçın rayon icra hakimiyyətinin dəstəyi və YAP Laçın rayon təşkilatının təşkilatçılığı ilə Bərdə rayonu ərazisində müvəqqəti məskunlaşmış bir sıra ahıl yaşlı sakinlər ziyarət edilmişdir.

Təşkil edilən ziyarətdə Laçın rayon icra hakimiyyəti başçısı aparatının şöbə müdirinin müavini Məhəmməd Şahbazov, YAP Laçın rayon təşkilatının sədr müavini Xaliq Musayev iştirak ediblər.

Ziyarət olunan ahıllardan Sosialist Əməyi Qəhrəmanı Şərqiyə Vəliyevanın evində təşkil edilən çay süfrəsi ətrafında, ilk öncə, ahıllar bu əlamətdar gün münasibəti ilə rayon rəhbərliyi adından təbrik edilmiş, onların həyat təcrübəsinə müasir gəncliyin daim ehtiyacı olduğu qeyd olunmaqla, keçdikləri şərəfli ömür yolunun və zəhmətsevərliklərinin hər kəs üçün nümunə olduğu bildirilmiş, onlara rayon rəhbərliyinin bayram sovqatı çatdırılmışdır.

Səmimi keçən görüşdə ziyarət olunan Şərqiyə Vəliyeva və Laçın rayon Ağsaqqallar Şurasının sədri Ağayar İsmayılov ahıllar adından onlarla təşkil edilən bu görüşün əhəmiyyətindən danışmış və belə bir gündə ziyarət edildikləri üçün sevincli olduqlarını diqqətə çatdırmışlar. Onlar işlədikləri illərlə bağlı öz xatirələrini bölüşmüş, vətənə və xalqa xidmət etməyin ən şərəfli peşə olduğunu bildirmişlər.

Ahıllar yaşlarının ixtiyar çağında onlara dövlət qayğısının ilbəil artdığından razı qaldıqlarını bildirərək, göstərilən hərtərəfli diqqətə görə ölkə başçısı İlham Əliyevə öz minnətdarlıqlarını ifadə etmişdilər.

***ZÜMRÜD***

# YAP İsmayıllı rayon təşkilatı Beynəlxalq Ahıllar Günü münasibəti ilə aksiya keçirib



Dünən Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatının Beynəlxalq Ahıllar Günü münasibəti ilə keçirdiyi aksiyada rayon ərazisində yaşayan bir qrup ahıl sakin ziyarət edilib. Aksiyada iştirak edən Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova və YAP rayon təşkilatının şura üzvləri və fəallar ahılları əlamətdar bayram münasibətilə təbrik edərək, onların gündəlik qayğıları və problemləri ilə maraqlanıblar.

Ahıllar təşkil edilən bu görüşün əhəmiyyətindən danışaraq, belə bir gündə ziyarət edildikləri üçün sevincli olduqlarını diqqətə çatdırıblar. İşlədikləri illərlə bağlı öz xatirələrini bölüşən ahıllar Vətənə və xalqa xidmət etməyin ən şərəfli peşə olduğunu bildiriblər.



Səmimi söhbət zamanı vurğulanıb ki, öz fəaliyyətində daim sosial istiqamətləri prioritet elan edən YAP sosial-iqtisadi inkişafla bağlı, davamlı olaraq, müxtəlif layihələr həyata keçirir. Belə fəaliyyətlərdən biri də xüsusi qayğıya ehtiyacı olan şəxslərin, o cümlədən, ahılların və tənhaların daim diqqətdə saxlanılması, onların qarşılaşdıqları problemlərin həllidir. Qeyd edilib ki, Ümummilli Lider Heydər Əliyev ahıl insanlara, onların problemlərinə hər zaman böyük diqqət və qayğı ilə yanaşıb. Prezident İlham Əliyev tərəfindən ahıllara diqqət, qayğı və sosial vəziyyətlərinin yaxşılaşdırılması məqsədilə çoxlu sayda sərəncamlar imzalanıb. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da ahıllara ən böyük qayğıkeşdir. Onun təşəbbüsü ilə ahıllar və müharibə veteranları ilə görüşlər keçirilir. Onların sağlamlığı diqqətdə saxlanılır. Ziyarət olunan şəxslər onlara göstərilən diqqət və qayğıya görə, ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Onlar qeyd ediblər ki, həyata keçirilən bu cür aksiyalar onların sosial rifahlarının yüksəldilməsinə töhfə verməklə yanaşı, xoş əhval-ruhiyyə yaradır. Qeyd edək ki, ziyarət edilən hər bir ahıla Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatı tərəfindən hazırlanmış ərzaq bağlamaları təqdim edilib.

***NƏZAKƏT ƏLƏDDİNQIZI***

# Ahıllar dövlət qayğısı ilə əhatə olunub

## *YAP Zərdab rayon təşkilatı Beynəlxalq Ahıllar Günü ilə əlaqədar sosial aksiya keçirib*

***Hər il oktyabrın 1-i dünyada, o cümlədən, ölkəmizdə Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur. Beynəlxalq Ahıllar Günü ölkəmizdə 1993-cü ildən qeyd olunur. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev ahıl insanlara, onların problemlərinə hər zaman böyük diqqət və qayğı ilə yanaşmışdır.***



YAP daim müxtəlif layihələr həyata keçirərək, qayğıya ehtiyacı olan insanlarla görüşlər keçirir: “Yeni Azərbaycan Partiyası hər zaman bu cür sosial aksiyalar reallaşdırır. Partiyamızın fəal üzvləri də bu aksiyalarda fəal iştirak edirlər. Bu gün reallaşdırılan ahıl insanlara, aztəminatlı ailələrə sosial yardım aksiyası da dövlətimizin və partiyamızın sosial siyasətini özündə ifadə edir” deyən YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova belə görüşlərin bundan sonra da davam etdiriləcəyini bildirib. Hökumətin və partiyanın həyata keçirdiyi siyasətin humanizmindən, insanpərvərlikdən, insanlara qayğıdan xəbər verdiyini qeyd edən təşkilat sədri diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin bu gün həyata keçirdiyi siyasətin əsas qayəsi də ondan ibarətdir ki, dövlətimizin iqtisadi imkanlarından hər bir vətəndaşın həyatının yaxşılaşması üçün istifadə edilsin, o cümlədən də, qayğıya ehtiyacı olan bütün insanlar diqqət mərkəzində saxlanılsın. Belə tədbirlər dövlətimizin, Prezident İlham Əliyevin siyasətinə, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ölkəmizdə həyata keçirdiyi layihələrə dəstək xarakteri daşıyır.



YAP Zərdab rayon təşkilatı və onun fəalları rayon ərazisində yaşayan 15-dən çox ahıla baş çəkib, onları ehtiyacı olan zəruri ərzaqla təmin etmişlər.

Qeyd edək ki, ziyarət olunan ahıl, qayğıya ehtiyacı olan insanlar, belə xeyriyyə aksiyalarının təşkilinin ölkəmizdə aztəminatlı ailələrə göstərilən diqqət və qayğının bariz nümunəsi olduğunu söyləyib, onlara göstərilən diqqət və qayğıya görə, ölkə rəhbərliyinə Ulu Öndərin yaratdığı və Azərbaycan xalqına qiymətli miras kimi qoyduğu Yeni Azərbaycan Partiyasına minnətdarlıqlarını bildiriblər.

***ZÜMRÜD***

# YAP Qobustan rayon təşkilatı Beynəlxalq Ahıllar Günü münasibətilə sosial aksiya keçirib





Dünən Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatı 1 Oktyabr Beynəlxalq Ahıllar Gününə həsr olunmuş sosial tədbir keçirib. YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev bildirib ki, pensiya yaşlı insanların sosial müdafiəsinin gücləndirilməsi “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır” deyən Prezident İlham Əliyevin diqqət mərkəzindədir: “Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı”na əsasən, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində davamlı islahatlar həyata keçirilir. Həmin islahatlar ölkəmizdə sosial müdafiə sisteminin beynəlxalq standartlar səviyyəsində yenidən qurulmasına imkan verir. Bu tarixin beynəlxalq səviyyədə qeyd olunması isə, ahıllara diqqət və qayğının artırılması məqsədi daşıyır. Azərbaycanda ahıl insanlara dövlət qayğısı da ildən-ilə artır”.

Rayon təşkilatının üzvləri rayonun ahıl insanlarını ziyarət edərək, onlara ərzaq bağlamaları təqdim ediblər.

Səmimi keçən görüşdə ahıllılar öz xatirələrini bölüşüb, ölkə Prezidenti İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Görüşlərin sonunda ahıllarla birgə xatirə şəkli çəkdiriblər.

***R.KAMALQIZI***

# Əli Kərimlini rüsvayçı sonluq gözləyir

**AXCP-də qopmalar və istefalar baş verməkdədir. Hətta kollegial orqanlarda təmsil olunan şəxslər, Əli Kərimlinin siyasətinə etiraz əlaməti olaraq, sədri sərt şəkildə tənqid edən bəyanatlarla çıxış edirlər. Bu, Ə.Kərimlinin siyasətinin iflası və onu, artıq nəinki müxalifət düşərgəsi, ümumiyyətlə, AXCP daxilində qəbul edilmədiyinin göstəricisi sayıla bilərmi?**

## Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "AXCP-dən istefalar davamlı xarakter daşıyacaq"



- Əslində AXCP-dən ayrılmalar, istefalar və Ə.Kərimliyə etirazlar indi başlamayıb. Əbülfəz Elçibəyin ölümündən sonra Ə.Kərimli partiyaya antidemokratik bir tərzdə yiyələnəndən sonra başladı. Partiyanın əsas simaları bu partiyadan ayrıldılar və ya partiya uğrunda mübarizəyə başladılar. Lakin bu adam xarici havadarlarının səyi nəticəsində partiyaya yiyələndi. Digər şəxslər də, məlum olduğu kimi, AXCP adına yaxın adla partiya yaratdılar və ya digər partiyalara keçdilər. Bundan sonra da, Ə.Kərimlinin oyunlarını siyasi işbazlığını görən partiya üzvləri partiyadan çıxmağa və ya hay-küylü bəyanatlar verməyə başladılar. Bütün bunlar xalqın yaddaşındadır. Son zamanlar da sosial şəbəkələrdə yaratdıqları trol bazası ilə özlərinə siyasi meydan quran Ə.Kərimli və digərləri eyforiya xəstəliyinə düçar olaraq, öz yaratdıqları trolları həqiqət hesab etməyə başlayaraq, ölkədə stabilliyi pozmağa cəhd etdilər. Təbii ki, bu partiyanın ətrafına yığışan az saylı aldanılmış insanlar, artıq bu adamın yalanlarını və siyasi işbazlığını dərk etmiş və ona görə də, düzgün addım ataraq, bu insanı ifşa etməyə qərar vermişlər. Hesab edirəm ki, müavini Fuad Qəhrəmanlının atdığı addımdan ibrət dərsi götürərək, istefa versə indiyə qədər atdığı ən düzgün addım olar. Çünki artıq bu adamın siyasi lider olaraq bitdiyi və hətta öz azsaylı tərəfdarları tərəfindən də qəbul edilmədiyi danılmaz faktdır.

## "Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev: "Aydın Əliyev Əli Kərimliyə qarşı çox sərt ittihamlar yağdırdı"



- AXCP sədrinin müavini Fuad Qəhrəmanlının məlum istefası ətrafındakı ajiotaj bitməmiş, bu siyasi qurumda daha bir qalmaqal baş verdi. Partiyada kifayət qədər ciddi fiqur sayılan, 30 il siyasətlə məşğul olan Nəzarət-Təftiş Komissiyasının sədri Aydın Əliyev də istefa verdi. F.Qəhrəmanlıdan fərqli olaraq, A.Əliyev partiya sədri Əli Kərimliyə qarşı çox sərt ittihamlar yağdırdı. Onu sıravi cəbhəçilərdən şəxsi mənafeyi üçün istifadə etməkdə, partiya daxilində sərt diktatura rejimi yaratmaqda, fərqli fikir yürüdənlərə böhtan ataraq, partiyadan uzaqlaşdırmaqda günahlandırdı. Sual oluna bilər ki, partiyadan qopmalar, rəhbərə qarşı kəskin ittihamlar nə üçün baş verir? Təbii ki, bu kimi halların köklü səbəbləri var. 25 ildən artıqdır ki, Əli Kərimli bu insanlara hakimiyyətə tezliklə gələcəyi ilə bağlı yalan vədlər verir. Nə qədər adamlar var ki, gəncliklərini belə xəyallara qurban verdilər. Onların içərisində istedadlı gənclər də var idi ki, əgər bələləri siyasətlə deyil, bacardıqları işlərlə məşğul olsaydılar, indi mühüm postlar tuta bilərdilər. Çox güman ki, belə şəxslər zamanı boşa xərclədiklərinə görə, ürəklərində partiya sədri ilə yanaşı, özlərini də ittiham edirlər... Bunu nəzərə alaraq, tam əsasla iddia etmək olar ki, yaxında AXCP-də yeni-yeni istefaların şahidi olacağıq.

**GÜLYANƏ**

# AXCP sədri dövlət maraqlarını necə satır?

*Yaxud, xainlərin layiqli cəza alacaqları gününün elə də uzaqda olmadığına ümid edək...*

***AXCP sədri Əli Kərimlinin müxtəlif siyasi və s. baxışları olan istənilən xarici anti-Azərbaycan xarakterli dairələrlə çoxsaylı iş birlikləri kifayət qədər təsdiq olunub. Sirr deyil ki, bu şəxs öz çirkin və mənfur ambisiyalarının reallaşdırılması üçün dəfələrlə şeytanla iş birliyinə getməyə hazır olduğunu bəyan edib. Bu baxımdan, Kərimlinin hətta adları terror bağlılığında hallanan təşkilatlarla iş birliyində olması faktlarını da göstərmək mümkündür. Misal üçün, bənzər qrupların və təşkilatların istər sosial şəbəkə, istərsə də media vasitəsi ilə yaydıqları hər bir dezinformativ məlumatlar dərhal ya Ə.Kərimlinin, ya da AXCP-yə məxsus sosial şəbəkə səhifələrinin necə deyərlər bəzəyinə çevrilir. Belə şəbəkələrdən biri də anti-Azərbaycan dairələrə məxsus nur.az-dır...***

## AXCP-"Milli Şura" cütlüyünün rəhbərliklərinin bu gün də xəyanətləri davam etməkdədir



O da əbəs deyil ki, Ə.Kərimlinin maraqlarını təmin edən bu yöndəki sosial şəbəkələr radikal dini təsirlər altında olan, ölkədə çaxnaşmalar, qiyam və üsyanlar qaldırmağa çalışan cərəyan təmsilçilərinin həbslərinə qarşı çıxır, müxtəlif dəstək kampaniyaları aparırlar. Əlbəttə ki, bütün bunlar tərəflərin qarşılıqlı razılaşmaları əsasında, eləcə də maliyyə təminatları nəticəsində baş verməkdədir.

Məhz bu baxımdan, xüsusilə nur.az sosial şəbəkə səhifəsinin Cənub sərhədlərimizin o tərəfindən, həmçinin Avropadan idarə olunması da şübhə doğurmur. Misal üçün, istər "Müsəlman Qardaşları Birliyinin" bir neçə il əvvəl Nardaranda törətdiyi hadisələrdə, istərsə də Gəncə olaylarında göstərdikləri terror xarakterli canfəşanlıqları bu gün də unudulmayıb. Demokratiya pərdəsi altında separatizmə dəstək verən AXCP-"Milli Şura" cütlüyünün rəhbərliklərinin bu gün də xəyanətləri davam etməkdədir. Maraqlı məqamlardan biri də budur ki, hazırda Avropada məskunlaşan şəbəkələr davamlı şəkildə Ə.Kərimli ilə sıx iş birliyi qurur, təlimat və sifarişlərini verməkdə davam edirlər.

## Əli Kərimlinin bağlı olduğu İsgəndər Hüseynzadə kimdir?

SİA xəbər verir ki, mətbuatda daha bir xəyanətkarın adı hallanıb və onun AXCP sədri ilə sıx münasibətdə olduğu məlumdur. Həmin adamın İsgəndər Hüseynzadə olduğu bildirilir. Bəlli olub ki, həmin şəxs 1996-cı ildən ailəsi ilə birgə İrana gedib və hazırda da orada yaşayır. Onun 1966-cı ildə Azərbaycanın Cəlilabad rayonunda anadan olduğu da bəllidir. Azərbaycan əleyhinə fəaliyyət göstərən dairələrinin nəzarətində və istifadəsində olan bir casusdur. Daha dəqiq desək, o, bilavasitə öz ölkəsinə - Azərbaycana qarşı dayanan birisidir. 2008-ci ildə barəsində "Dövlətə xəyanət" və "Terrorçuluq" maddələri ilə cinayət işi başlanıb. Elə həmin il MDB üzrə və İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilib. İ.Hüseynzadə Qum şəhərində fəaliyyət göstərən "Nur" elmi-mədəni müəssisəsinin (nur-az.com) rəhbəridir. Yuxarıda da qeyd olunduğu kimi, bu şəxsin saytında ölkəmiz əleyhinə qərəzli yazılar verilir.

## Əli Kərimli və ətrafı terror və qiyam törətməkdə təqsirli bilinən cinayətkarların məhkəmə proseslərinin birini də buraxmır

Əli Kərimli və onun nəzarətində olan zombi dəstəsi isə, açıq-aydın şəkildə Azərbaycana qarşı düşmənçilik edən bu cür adamları - vətən və millət xainlərini canfəşanlıqla qoruyur, hətta terror və qiyam törətməkdə təqsirli bilinən cinayətkar dəstələrin Bakıda keçirilən məhkəmə proseslərinin birini də buraxmırlar. "Siyasi məhbus" adlandırılmaları üçün əlindən gələni edir ki, bu vasitə ilə həmin şəxsləri təlimatlandırmış dairələrdən qrantlarını qoparsın.

Beləliklə, təəssüfedici olaylardan biri də budur ki, ölkəmizin, dövlətimizin maraqları əleyhinə fəaliyyət göstərən, siyasi müxalifətçilik və demokratiya pərdəsi altında düşmənçilik edən AXCP sədri Ə.Kərimli və onun ətrafı hələ də azadlıqdadır. Xalq isə onun və yandaşlarının xəyanət və satqınçılığını heç vaxt bağışlamaq niyyətində deyil. Hər halda, müvafiq strukturların da bu məsələni diqqətlərində saxlayacaqlarını və xainlərin layiqli cəza alacaqları gününün elə də uzaqda olmadığına ümid edək...

**Rövşən RƏSULOV**

# 4G "Nar" şəbəkəsi ölkə əhalisinin 91,5%-nin xidmətində!




Abunəçilərinə hər zaman yüksəkkeyfiyyətli rabitə xidmətləri təqdim edən "Nar", sürətli 4G şəbəkəsini bütün ölkə ərazisində genişləndirməyə davam edir. Aparılan təkmilləşmə işləri nəticəsində 4G şəbəkəsi hazırda ölkə əhalisinin 91,5%-ni əhatə edir. Mobil operator LTE texnologiyalı baza stansiyalarını Azərbaycanın 53 regionunda quraşdırmağa nail olub. Hazırda "Nar"-ın hər üç abunəçisindən biri aktiv 4G istifadəçisidir. Ümumilikdə isə 4G istifadəçilərinin sayı 850 mini ötüb. "Nar" 2019-cu ildə şəbəkədə quraşdırılmış 1018 ədəd LTE-A texnologiyalı baza stansiyaları da daxil olmaqla, 2740-dan çox 4G texnologiyalı baza stansiyası və 2722 ədəd 3G baza stansiyası ilə abunəçilərini yüksək sürətli şəbəkə ilə təmin edir. Mobil operator hazırda 8500-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

Sərfəli qiymətlərə təklif olunan internet paketlərindən və yüksəksürətli mobil şəbəkədən yararlanmaq üçün siz də "Nar"-a qoşula bilərsiniz. Daha ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub.

## Peru konqresi ölkə prezidentini vəzifədən kənarlaşdırıb

Peru konqresinin sədri Pedro Olaeçea ölkə prezidenti Martin Viskarranın vəzifəsindən kənarlaşdırıldığını elan edib. "El Comercio" nəşrinin yazdığına görə, bu barədə müvafiq qətnamə parlamentin iclasında təsdiqlənib. Ölkə prezidenti konstitusiya quruluşunu pozmaqda təqsirli bilinərək müvəqqəti olaraq vəzifə tutmaqdan məhrum edilib. Parlament rəhbəri 86 deputatın dəstəyi ilə vitse-prezident Mersedes Araosu prezident səlahiyyətlərinin müvəqqəti icraçısı qismində andiçməyə çıxarıb.

## Oğurluq etdiyinə görə tutuldu, avtomobil qaçırdığı da üzə çıxdı

Oğurluq etdiyinə görə tutulmuş C.Əliyevin avtomobil qaçırması da müəyyən edilib. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, oğurluq etdiyinə görə tutulmuş C.Əliyevin ətrafında Baş Cinayət Axtarışı İdarəsi, Gəncə ŞBPİ və Kəpəz RPİ-nin əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onun "VAZ-2107" markalı avtomobili qaçırması da müəyyən edilmişdir.

# Məhbusların hüquqlarına dair

**_BMT-nin Məhbuslarla Rəftara dair Əsas Prinsiplərinə, Məhbuslarla Minimal Standart Davranış Qaydalarına, Avropa Penitensiar Qaydalarına, Cəzaların İcrası Məcəlləsinə və Cəzaçəkmə Müəssisələrinin Daxili İntizam Qaydalarına uyğun olaraq, məhkumlara münasib saxlanılma şəraitinin yaxşılaşdırılması və standartlara uyğunlaşdırılması, eyni zamanda, məhkumların sağlamlıq hüququnun təmin olunması, onların lazımi tibbi yardım almaq hüququnun Avropa Penitensiar Qaydalarına və Cəzaçəkmə Müəssisələrində tibbi yardımın etikvə təşkilati aspektləri üzrə Avropa Şurası Nazirlər Komitəsinin üzv ölkələrə tövsiyəsinəuyğun şəkildə təmin edilməsi məqsədəmüvafiqdir._**

Müvəkkilin təklif və tövsiyələri saxlanılan şəxslərin şərəf və ləyaqətinin müdafiəsinə, pozuntuların aradan qaldırılmasına, şəraitin təkmilləşdirilməsinə, normativ-hüquqi aktların müddəalarının beynəlxalq hüquqi sənədlərin, qaydaların və standartların tələblərinə uyğunlaşdırılmasına yönəldilmişdir

Cinayət Məcəlləsinin 126-cı maddəsinə (Qəsdən sağlamlığa ağır zərər vurma), yəni "Yetkinlik yaşına çatmayanlara qarşı törədildikdə" məzmunda 126.2.6-cı və 127.2.5-ci, habelə, "Eyni əməllər yetkinlik yaşına çatmayanlara qarşı törədildikdə," məzmunda 128.2-ci maddələrinin əlavə edilməsinə də ehtiyac vardır.

Başçəkmələr göstərir ki, "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın və onun Fakültativ Protokolunun tələbləri azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması yerlərinin, o cümlədən, hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən öyrənilir və bu, davam etdirilməlidir.

"İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə milli preventiv mexanizm qismində fəaliyyətə dair" 2015-cı il üzrə altıncı hesabat hazırlanmışdır.

Mövcud sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi, habelə, MPQ üzvlərinin nəzəri və təcrübi biliklərinin artırılması məqsədilə həmin əməkdaşlar təcrübə mübadiləsi keçmək, habelə, fəaliyyəti təkmilləşdirmək məqsədilə müxtəlif vaxtlarda işgəncələrlə mübarizə məsələlərinə həsr olunmuş tədbirlərdə iştirak etmişlər. MüvəkkilMPM qismində BMT və onun müqavilə qurumları, Avropa Şurası, Avropa İttifaqı, ATƏT, BMT-nin İşgəncələrin qarşısının alınması üzrə Alt Komitəsi (SPT), İşgəncələrə qarşı Avropa Komitəsi (CPT), İşgəncələrin Qarşısının Alınması üzrə Assosiasiya (APT) və digər təşkilatlarla əməkdaşlıq edir.

Müvəkkilin UNİCEF-in Bakı ofisi ilə əməkdaşlığı çərçivəsində MPO üzvlərinin və regional mərkəzlərin rəhbərlərinin iştirakı ilə "Uşaq hüquqları sahəsində monitorinq bacarıqlarının artırılması" mövzusunda beş günlük treninq təşkil edilmişdir.

İşgəncələr əleyhinə milli preventiv mexanizm sahəsində işin daha peşəkar şəkildə qurulması, fəaliyyətin qiymətləndirilməsi və mövcud sahədəişin təkmilləşdirilməsi məqsədilə Müvəkkil beynəlxalq qurumların nümayəndələri ilə görüşlər keçirmiş, insan hüquqlarının müdafiəsi məsələləri üzrə qarşılıqlı fikir mübadiləsi aparmışdır.

BMT-nin İşgəncələrə qarşı Komitəsinin 56-cı sessiyası çərçivəsində Azərbaycan hökumətinin dördüncü dövrü hesabatı və QHT-lərin hesabatları ilə yanaşı, BMT-nin "İşgəncələr və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növləri əleyhinə" Konvensiyası üzrə milli preventiv mexanizm funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkilin təqdim etdiyi əlavə hesabata dinlənilmişdir.

Fikir və söz azadlığı. Demokratik cəmiyyətin formalaşmasında, ictimai proseslərin müsbət istiqamətdə və təkmil inkişafında azad fikrin və sözün, habelə, fikir və söz sahiblərinin, mətbuat nümayəndələrinin rolu və məsuliyyəti böyükdür.

Müvəkkil ölkəmizin müstəqilliyi, inkişaf yolu, milli vətənpərvərlik ruhunun yüksəlməsi ilə bağlı yazılara böyük ehtiyac duyulduğunu, bununla belə, müharibə şəraitində olan ölkəmizdə əsası olmayan, şayiə və böhtan xarakterli məlumatların yayılmasının yolverilməz olduğunu bildirib. Yeri gəlmişkən, Nazirlər Kabinetinin 2015-ci il 14 avqust tarixli, 279 nömrəli qərarı ilə "Jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırılması qaydası"nın təsdiq edilməsi mövcud fəaliyyətin tənzimlənməsində əhəmiyyət daşıyır.

İnsan hüquqları mövzusunda yazan jurnalistlərin hüquqi maarifləndirilməsinə, bu sahədə fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin təşəbbüslərinə Müvəkkil tərəfindən daim diqqətlə yanaşılmış, əməkdaşlıq əlaqələri davam etdirilmiş, təsisatın təşkil etdiyi tədbirlərdə mətbuat nümayəndələri daim təmsil olunmuşlar.

2015-ci ildə Avropa Şurası tərəfindən təşkil edilən "Azərbaycanda ifadə azadlığı və media azadlığı" layihəsi çərçivəsində jurnalistlərin təhlükəsizliyi və ifadə azadlığı mövzularında təlimlər keçirilmiş, aparatın əməkdaşları həmin təlimlərdə ekspert qismində iştirak etmişlər.

Təsisatın fəaliyyəti ilə, bağlı müntəzəm olaraq, mətbuat orqanlarına, o cümlədən, qəzet və jurnallara, teleradio kanallarına, informasiya agentliklərinə, elektron qəzetlərə və xəbər portallarına məlumatlar, o cümlədən, ümumilikdə, 3.578, 2015-ci ildə 280 press reliz hazırlanaraq göndərilmiş, müsahibə və bəyanatlar verilmiş, fəaliyyət dövrü ərzində 10.102, 2015-ci ildə 342 məqalə və informasiya dərc edilmişdir.

Müvəkkilin uşaq hüquqları üzrə resurs mərkəzi olan Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi nəzdində Liderlik Məktəbinin yetirmələrinə KİV barədə dolğun informasiya aşılamaq məqsədilə "İnformasiya cəmiyyətində kütləvi informasiya vasitələrinin rolu" mövzusunda tədbir keçirilmişdir.

Müvəkkil bir sıra beynəlxalq qurumların nümayəndələrini də qəbul etmiş, ölkədə fikir və söz azadlığının vəziyyəti, jurnalistlərin və mətbuat nümayəndələrinin hüquqlarının müdafiəsi məsələləri müzakirə olunmuşdur.

Jurnalistlərə qarşı kobud rəftar hallarının yolverilməz olduğunu qətiyyətlə bildirən, belə halları pisləyən Müvəkkil fikir, söz və mətbuat azadlığının təmin olunmasını və jurnalistlərin müdafiəsini daim diqqətdə saxlamışdır.

Peşə fəaliyyəti ilə bağlı olmayan cinayət törətməkdə şübhəli bilinmiş və ya təqsirləndirilən şəxs qismində cəlb edilmiş, yaxud da məhkum olunmuş mətbuat nümayəndələrinin vəziyyətini nəzarətdə saxlayan Müvəkkilin tapşırığı ilə MPQ üzvü olan aparatın əməkdaşları, müntəzəm olaraq, həmin şəxslərlə, o cümlədən, Rauf Mirqədirov, Tofiq Yaqublu, Hilal Məmmədov, Xədicə İsmayıl, Pərviz Həşimli, Seymur Həzi və Araz Quliyev ilə görüşmüş, vəziyyətləri, saxlanılma şəraiti, qidalanmaları, səhhətləri, onlara qarşı rəftarla bağlı, mütəmadi olaraq, müvafiq cəzaçəkmə müəssisəsinin və ya istintaq təcridxanasının rəhbərləri ilə əlaqə saxlamış, öz tövsiyələrini vermişlər.

Müvəkkil, törətdikləri əmələ uyğun olaraq, habelə, dünya təcrübəsində hüquq pozuntusuna yol vermiş kütləvi informasiya vasitələri nümayəndələrinin tənbehi ilə bağlı alternativ üsulların mövcudluğuna daim diqqəti yönəltmiş və bu üsulların praktikada tətbiqini, həmçinin, əlaqədar dövlət qurumlarının, Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun, Azərbaycan Mətbuat Şurasının əlaqəli şəkildə junalistlərin peşəkarlığının artırılmasına, habelə, gənc jurnalist kadrların yetişdirilməsinə xidmət edən treninq və seminarlara cəlb edilməsi üzrə tədbirlərin davam etdirilməsini zəruri hesab edir.

Ümidlə demək olar ki, mətbuat nümayəndələri bundan sonra da milli mənafeləri üstün tutmaqla, milli prioritetlərin işıqlandırılmasında, respublikada gedən dinamik proseslərin, xalqın taleyüklü məsələlərinin, həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında, ədalətin dəstəklənməsində daha fəal iştirak edəcək, söz və mətbuat azadlığının, fikir plüralizminin, peşə etikasının davamlı tərzdə yüksəldilməsində, insanların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində xüsusi bilik, bacarıq və peşəkarlıqlarını əsirgəməyəcəklər.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

İnformasiya əldə etmək azadlığı. İnformasiya və kommunikasiya texnologiyalarısahəsində həyata keçirilən islahatlar nəticəsində, ölkəmizin ümumdünya elektron məkanınada ha sürətliin teqrasiyası təmin edilmiş, elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlliistiqamətində mühüm addımlar atılmışdır.

Azərbaycandilli internet resurslarının zənginləşdirilməsi, internet-radio və internet-televiziya proqramları, elektron qəzet və jurnalların yayılması, sosial şəbəkələrin geniş yer alması və respublika əhalisinin əksər hissəsinin internet istifadəçisinə çevrilməsi informasiya-kommunikasiya texnologiyalarının inkişafının əyani göstəricisidir.

İnformasiya cəmiyyətinin bərqərar olduğu bir vaxtda "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələrin informasiya sahibi olan dövlət orqanları, yerli özünüidarə orqanları və vəzifəli şəxsləri tərəfindən yerinə yetirilməsinə nəzarətin Müvəkkilə həvalə edilməsi, onun mandatının və səlahiyyətlərinin genişləndirilməsi Müvəkkilin KonstitusiyaQanunu ilə müəyyən edilmiş müstəqilliyinin daha səmərəli təmin edilməsinə xidmət edir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 1.3-cü bəndində 2013-2014-cü illərdə "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin icrasına nəzarətin həyata keçirilməsi məqsədi ilə Müvəkkil Aparatının strukturunun təkmilləşdirilməsi və aidiyyəti əməkdaşların ixtisaslaşmış treninqlərə cəlb edilməsi nəzərdə tutulmuşdur.

Elektron hökumətin tələblərinə uyğun olaraq, informasiya texnologiyalarının inkişaf etdiyi bir vaxtda bu sahədə yeni nailiyyətlər istifadə olunmaqla və informasiya almaq hüququnun daha da sadələşdirilməsi məqsədilə Müvəkkilin rəsmi internet səhifəsinin təkmilləşdirilməsi üzrə işlər aparılmış, daha çevik və təkmilləşdirilmiş yeni sayt hazırlanmışdır.

İnformasiya sahiblərinin əsas vəzifəsi qanunla müəyyən edilmiş qaydalara uyğun olaraq, vətəndaşların sorğularına çevik cavab verməkdir. Konstitusiya Qanununun 1.3-cü maddəsinə əsasən, Müvəkkil informasiya sahibi olan dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarəti həyata keçirir.

**_VAHİD ÖMƏROV,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**

səs

Son səhifə 2 oktyabr

## YAP Qusar rayon təşkilatı Beynəlxalq Ahıllar Günü münasibətilə sosial aksiya keçirib

Hər il oktyabrın 1-i dünyada, o cümlədən, ölkəmizdə Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur. Bu tarixdə respublikanın şəhər və rayonlarında yaşayan ahıl vətəndaşların ehtiyaclarını öyrənərək, onlar üçün bayram süfrələri, ərzaq bağlamaları təşkil edilir, müxtəlif xeyriyyə, şəfqət və mədəni-kütləvi tədbirlər həyata keçirilir. Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, biri-birindən əhəmiyyətli sosial layihələri ilə diqqət çəkən Yeni Azərbaycan Partiyasının şəhər və rayon təşkilatları da bu mühüm tədbirlərdə xüsusi fəallıq nümayiş etdirirlər. Fəaliyyətini xeyirxahlıq və humanizm prinisipləri əsasında formalaşdıran YAP Beynəlxalq Ahıllar Gününü müdrikliyə və yaşlı nəslə hörmət kimi qeyd edir. Ahıllar günü münasibəti ilə YAP-ın rayon təşkilatları ərazilərində yaşayan ahıllara hədiyyələr apararaq, onları ziyarət ediblər.





Yeni Azərbaycan Partiyası Qusar rayon təşkilatı 1 Oktyabr Beynəlxalq Ahıllar Günü ilə bağlı rayonda yaşayan aztəminatlı ahıl ailələrə baş çəkərək, onlara bayram sovqatları və ərzaq bağlamaları təqdim ediblər. Rayon təşkilatının fəalları ahılların səhhəti, həyat tərzi və ehtiyacları ilə maraqlanıblar.

Ahıllar da, öz növbəsində, dövlətimiz tərəfindən onlara göstərilən diqqət və qayğıya görə, minnətdarlıq hisslərini ifadə ediblər. Bildirilib ki, həyata keçirilən bu cür aksiyalar onların sosial rifahlarının yüksəldilməsinə töhfə verməklə yanaşı, xoş əhval-ruhiyyə yaradır.

***Nəzakət ƏLƏDDİNQIZI***

## DİN: Cinayət törətməkdə şübhəli bilinən 25 nəfər saxlanılıb



Ötən gün törədilmiş 14 cinayətin üstü respublikanın daxili işlər orqanları tərəfindən “isti izlər”lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış iki cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 27 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 1 nəfər, borclu şəxs qismində axtarılan 12 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş bir ağır yol-nəqliyyat hadisəsi nəticəsində bir nəfər ölüb, bir nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklə əlaqəli yeddi fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 25 nəfər saxlanılıb.

### ELAN

Xaçmaz rayonu Gödəkli kəndində yaşayan Nəzərova Mahirə Məmmədəli qızına məxsus JN-011 A kod 30204028 saylı torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Biologiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Səfərova Diana İzzəddin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## YAP Kürdəmir rayon təşkilatının ərazi ilk təşkilat sədrlərinin yığıncağı keçirilib

Dünən YAP Kürdəmir rayon təşkilatının Heydər Əliyev Mərkəzində O.Mirzəyev adına (Kürdəmir Regional Mədəniyyət İdarəsi) ərazi ilk partiya təşkilatının partiya üzvləri ilə növbəti görüş keçirilib. Görüşdə Yeni Azərbaycan Partiyası Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli bildirib ki, bu gün Azərbaycan, sözün həqiqi mənasında, möhtəşəm bir dövlətə çevrilib: “Ölkəmizin bütün sahələrində böyük nailiyyətlər əldə edilməkdədir. Həyatımızın yaxşılaşması istiqamətində böyük layihələr həyata keçirilir, insanların həyat səviyyəsi yaxşılaşır, ölkəmizin beynəlxalq imici ciddi şəkildə yüksəlir və beynəlxalq əlaqələrimiz genişlənməkdədir”.





A.Kərimli ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasi fəaliyyətini və təbliğatını həyata keçirən siyasi partiya olduğunu söyləyərək bildirib ki, ərazi ilk partiya təşkilatları ölkəmizin bütün uğurlu inkişafında daha böyük səylə çalışmalı və fəallıq nümayiş etdirməlidir.

Rayon təşkilatı sədri son günlər Azərbaycanın inkişafını istəməyən qüvvələrin sosial şəbəkələrdə dövlətimizə qarşı qarayaxma kampaniyası apararaq, ictimaiyyətdə çaşqınlıq yaratmağa çalışdıqlarını bildirərək vurğulayıb ki, hamılıqla bu satqınlara qarşı elliklə mübarizə aparmalı, həmin dairələrin əməllərini qətiyyətlə pisləməliyik.

Tədbirdə çıxış edən ərazi ilk partiya təşkilatının sədri Vaqif Alıyev, ilk təşkilatın üzvü Xəyyam Məlikov ölkə rəhbərimizin siyasətinin dəstəklənməsində daha aktiv olacaqlarını, təbliğatlarını günün tələbləri səviyyəsində quracaqlarını və ölkəmizə qarşı böhtan xarakterli çıxışlarına qarşı layiqincə cavab verəcəklərini diqqətə çatdırıblar.

***RƏFİQƏ***

## YAP Binəqədi rayon təşkilatının kollektivi ahılları ziyarət ediblər

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının bir qrup əməkdaşı və gənc fəalı 1 Oktyabr Beynəlxalq Ahıllar Günü ilə bağlı Binəqədi rayonunda yaşayan aztəminatlı ahıl ailələrə baş çəkərək, onlara bayram sovqatlar təqdim ediblər.

Ziyarət zamanı Binəqədi rayonunun bütün qəsəbə və sahə inzibati-ərazi dairələri üzrə aztəminatlı ahıl ailələr müəyyən edilərək evləri ziyarət edilib, onların qayğıları ilə maraqlanılıb, tibbi yardım göstərilib, gənc fəllar tərəfindən yardım məqsədilə evlərində təmizlik, səliqə-səhman işləri görülüb. Ahıl insanlara bayram sovqatları və ərzaq bağlamaları təqdim edilib.





Görüş zamanı ahıllar ziyarətdən məmnun olduqlarını, onlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti, YAP-ın Sədri İlham Əliyevə təşəkkür ediblər. Qeyd olunub ki, ölkəmizdə ahıl insanlara, aztəminatlı ailələrə daim yardımlar edilir və onların sosial vəziyyətlərinin daha da yaxşılaşdırılması istiqamətində dövlət proqramları həyata keçirilir.

***ZÜMRÜD BAYRAMOVA***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**